YENİ MÜSAVAT

www.musavat.com

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 24 fevral 2017-ci il Cümə № 42 (6656) Qiyməti 60 qəpik

**Xəbər**

## Lerikdə dəhşət: ailənin 4 üzvü qar uçqununda öldü

yazısı səh.13-də

# Azərbaycan yeni statusa doğru - maraqlı gəlişmə

# AĞIRLIQ MƏRKƏZİ BAKIYA KEÇİR - QARABAĞ ÜÇÜN YENİ FÜRSƏT

Generalların Bakı görüşü regional və qlobal siyasətdə ölkəmizin güclənən rolunun təsdiqidir; Türkiyə-Rusiya böhranının aradan qalxmasında mühüm rol oynayan Bakı gərginləşən İran-Türkiyə, İran-ABŞ əlaqələrinə də sanballı töhfə verə bilər; **"Nezavisimaya qazeta":** "İlham Əliyevin moderatorluğu görüşləri daha effektli edərdi..."




yazısı səh.9-da

## Vasif Talıbovun vitse-prezident olacağı xəbəri təkzib edildi

Naxçıvan MR-in Ali Məclisinin fövqəladə sessiyasında konstitusiya düzəlişləri qəbul olundu, Ali Məclis sədrinin vitse-prezident elan ediləcəyi barədə xəbərlər haradan qaynaqlanıb? yazısı səh.6-da

**Gündəm**

### Eks-prezidentdən "Yeni Müsavat"a önəmli açıqlamalar



Ayaz Mütəllibov Rusiya ilə əlaqələrdən, Xocalı faciəsini doğuran səbəblərdən və Qarabağda yeni müharibə ehtimalı barədə danışdı

yazısı səh.5-də

### Hakimiyyət müxalifəti "hərəkətə keçirir"

yazısı səh.6-da

### Maydanın 3 ili: Ukrayna inqilabdan nə qazandı, nə itirdi...

yazısı səh.8-də

### İqtidarın "kadr bankı"nda kimlər var- sabiq nazirdən açıqlamalar

yazısı səh.4-də

### "Ermənistan-Azərbaycan Sülh Platforması"nın həmtəsisçisi "Yeni Müsavat"a danışdı

yazısı səh.7-də

### Masallıda tanınmış Şeyxin müəmmalı həbsi

yazısı səh.4-də

### Xocalını 25 ildir Haaqaya "apara" bilmirik-deputatın şərhi

yazısı səh.9-da

### Ömürlük məhkumların işləri üzrə işçi qrup yaradılıb

yazısı səh.4-də

### Novruz cibimizi soymağa gəlir

yazısı səh.12-də

### Qadını ipə aparan səbəb-psixoloqdan ilginc açıqlamalar

yazısı səh.11-də

### Bakıda narkotik neçəyədir?

yazısı səh.14-də

### Ötən il Azərbaycana 2 milyon 250 min turist gəlib

yazısı səh.12-də



### Çovdarov taktikanı dəyişdi: "Susmaq qızıldır..."

yazısı səh.11-də



### Aleksandr Lapşin Bakıda anası ilə görüşdü

yazısı səh.5-də



### "Amerikanı dəlmə-deşik edərik" deyən Dmitri Roqozin kimdir?

yazısı səh.10-da



## Gürcüstanın baş naziri Azərbaycan prezidentinə zəng edib

**Fevralın 23-də Gürcüstanın baş naziri Giorgi Kvirikaşvili Azərbaycan pezidenti İlham Əliyevə telefonla zəng edib. Gürcüstanın baş naziri xanım Mehriban Əliyevanın Azərbaycan Respublikasının birinci vitse-prezidenti təyin olunması ilə bağlı təbriklərini çatdırıb və əminliyini ifadə edib ki, bu təyinat Gürcüstan-Azərbaycan əlaqələrinin daha da möhkəmlənməsi işinə öz müsbət təsirini göstərəcək.**

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.



## Kırımoğlu Krım haqda: "...Qaytarmaq olmaz"

**Ukrayna Ali Radasının deputatı, Krım tatarlarının lideri hesab edilən Mustafa Cemilev (Kırımoğlu) bildirib ki. Krımı hərbi yolla geri almaq düşünülərsə, yarımada büsbütün ölü zonaya çevrilə bilər.**

Virtualaz.org "112 Ukrayna" portalına istinadən xəbər verir ki, M.Kırımoğlu bununla bağlı deyib: "Hərbi yol perspektivsizdir. Bundan sonra yarımadada etnik təmizləmələr başlaya bilər. Orada müharibə başlayarsa, Krım insan yaşamayan yarımadaya çevrilər".

O, ümidvar olduğunu bildirib ki, Rusiya əleyhinə sanksiyaların gücləndirilməsi bu ölkəni Krımdan əl çəkməyə məcbur edəcək.

## Meteohəssas insanlar, diqqətli olun!

**Fevralın 24-də Bakı və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamenti bildirir ki, bəzi yerlərdə duman olacaq. Mülayim cənub-qərb küləyi gündüz arabir güclənən şimal-qərb küləyi ilə əvəz olunacaq.

Havanın temperaturunun yarımadada gecə 2-5° isti, gündüz 8-13°, bəzi yerlərdə 15° isti, Bakıda gecə 2-4° isti, gündüz 11-13° isti olacağı gözlənilir.

Tibbi-meteoroloji proqnoza əsasən, fevralın 24-25-də Abşeron yarımadasında atmosfer təzyiqinin xeyli tərəddüdü, qısa müddətdə arabir güclənən gilavar və xəzri küləyinin tez-tez bir-birini əvəz etməsi meteohəssas insanlar üçün əlverişsizdir.

Azərbaycanın rayonlarında da hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman olacaq.

Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturunun gecə 0-5° isti, gündüz 13-18° isti, dağlarda gecə 0-5° şaxta, gündüz 5-10° isti olacağı gözlənilir.

## Bakı Metropoliteni gücləndirilmiş iş rejimində işləyəcək

**Fevralın 26-da Bakı Metropoliteni gücləndirilmiş iş rejimində işləyəcək. "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin mətbuat xidmətinin rəhbəri Nəsimi Paşayev bildirib ki, gücləndirilmiş iş rejiminə keçidin səbəbi Xocalı faciəsinin 25-ci ildönümü ilə əlaqədardır.**

N.Paşayev əlavə edib: "Metronun "Xətai" stansiyası Xocalı abidəsinə yaxın yer olduğu üçün həmin gün ora daha çox sərnişinin gəlməsi gözlənilir. Ona görə də əsasən həmin stansiya gücləndirilmiş iş rejimində işləyəcək".

"Qaya Mətbuat Yayımı" MMC!

- **İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**
- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# Şəhid hərbçi Şəmkirdə torpağa tapşırılıb

**Şəmkirdə şəhid əsgərin dəfn mərasimi keçirilib. APA-nın qərb bürosunun verdiyi məlumata görə, ötən gün erməni silahlı qüvvələrinin artilleriya atəşi nəticəsində şəhid olan Azərbaycan Silahlı Qüvvələrinin hərbçisi, 1997-ci il təvəllüdlü Xanoğlan Xəlilov fevralın 23-də anadan olduğu Şəmkir rayon Seyidlər kəndində torpağa tapşırılıb.**



Dəfn mərasimində rayon İcra Hakimiyyəti başçısı, ictimaiyyət nümayəndələri, kənd sakinləri, şəhidin hərbçi yoldaşları, xidmət etdiyi hərbi hissəsinin zabitləri, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin əməkdaşları iştirak ediblər.

Çıxış edənlər şəhidin döyüş yolundan danışaraq, onun mərd, vətəni sevən biri olduğunu bildiriblər. Qeyd edilib ki, Xanoğlan Xəlilov hər kəsə nümunə sayılacaq hərbçi olub.

Sonra şəhid Seyidlər kənd qəbiristanlığında yaylım atəşi ilə torpağa tapşırılıb.

Şəhidin tabutunun büküldüyü Azərbaycan bayrağı atasına təqdim edilib.

## Şeyx katolikosa niyə zəng edib?

**Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə ilə Ümumgürcüstan Katolikos-Patriarxı II İliya arasında telefon danışığı olub.**

QMİ-nin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, QMİ sədrinin təşəbbüsü ilə baş tutan söhbət zamanı A. Paşazadə II İliyanın səhhəti, əməliyyat sonrası əhvalı ilə maraqlanıb.

Şeyxülislam Patriarxın səhhətinin qaydasında olmasından və Azərbaycan dindarlarının salamlarını ona yetirməkdən məmnun olduğunu dilə gətirib. A. Paşazadə ən yaxın zamanda - qarşıdakı həftələrdə II İliya həzrətlərini ziyarət etmək üçün Gürcüstana gedəcəyini Patriarxın diqqətinə çatdırıb.

Telefon bağlantısı zamanı Patriarx II İliya Azərbaycan prezidenti İlham Əliyev və ölkənin I vitse-prezidenti Mehriban Əliyevaya səmimi salamlarını çatdırmağı Şeyxülislamdan rica edib, M. Əliyevaya yeni təyinatı münasibətilə xeyir-dualarını çatdırıb.

## Fevralın 26-da Günəş tutulması baş verəcək

**Fevralın 26-da bu ilin ilk Günəş tutulması hadisəsi baş verəcək. Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Şamaxı Astrofizika Rəsədxanasının direktor müavini Xıdır Mikayılov bildirib ki, proses saat 16:12-də başlayacaq, saat 18:54-də maksimumda olacaq, saat 21:35-də bitəcək.**

O qeyd edib ki, həlqəvari Günəş tutulması Amerika, Cənubi Afrikanın qərbində müşahidə olunacaq. X.Mikayılov vurğulayıb ki, bu hadisəni Azərbaycandan izləmək mümkün olmayacaq.

Qeyd edək ki, bu il 2 Ay və 2 Günəş tutulması hadisəsi baş verəcək. İlk Ay tutulması fevralın 11-də qeydə alınıb. Növbəti Ay tutulması avqustun 7-də, ikinci Günəş tutulması isə avqustun 21-də olacaq. Bu hadisələrin insanlar üçün heç bir təhlükəsi yoxdur və adi astronomik hadisədir. (APA)




## Müdafiə naziri cəbhədə təlim mərkəzi açıb

**Cəbhəboyu zonada olan Müdafiə Nazirliyinin rəhbərliyi Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən cəbhə xəttində yeni inşa edilmiş təlim mərkəzinin, qərargah binasının və əsgər yataqxanalarının açılışında iştirak edib.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, təlim mərkəzi haqqında məruzə edilərək bildirilib ki, burada idarəetmə məntəqəsi, qərargah binası və şəxsi heyətin yerləşdirilməsi üçün lazımi infrastruktur yaradılıb. Real döyüş şəraitinə yaxın inşa edilən, cəbhə xəttindəki vəziyyətə uyğun modelləşdirilmiş təlim nöqtələri atış çalışmaları, müxtəlif döyüş və xüsusi texnikanın mürəkkəb relyef və hava şəraitində idarə olunması üzrə praktiki vərdişlərin təkmilləşdirilməsi məqsədilə məşğələlərin keçirilməsi üçün nəzərdə tutulub.

Bununla yanaşı, mürəkkəb dağ şəraitində döyüş aparmaq, kəşfiyyat-axtarış tədbirləri həyata keçirmək, pusqular qurmaq hərbi əməliyyatlar zamanı düşmənə qarşı effektiv tədbirlər görmək kimi döyüş tapşırıqlarını tədris və praktiki məşq etmək üçün təlim mərkəzində lazımi şərait yaradılıb.

Müdafiə naziri mərkəzdə təlim keçəcək şəxsi heyətin peşəkarlıq qabiliyyətinin artırılması məqsədilə mövcud olan müasir təlim üsullarının öyrənilməsi, onların döyüş hazırlığında tətbiq edilməsi və şəraitə uyğunlaşdırılması ilə bağlı müvafiq göstəriş və tapşırıqlar verib.

## Şamaxı Rəsədxanası NASA-nın kəşfinə izahat verdi

**AMEA-nın Şamaxı Astrofizika Rəsədxanası (ŞAR) NASA alimlərinin Yer ölçüsündə 7 planetin kəşf etməsi ilə bağlı yaydığı məlumata münasibət bildirib. ŞAR-ın direktoru Namiq Cəlilov APA-ya deyib ki, aşkarlanan planetlərdən 3-ü kütləsi və radiusuna görə Yerə kürəsinə oxşayır. O qeyd edib ki, həmin obyektlərin atmosferi, onların tərkibində nə var onu indidən demək mümkün deyil:**

"Zəif obyektlər olduğundan onları yerdən müşahidə etmək çox çətindir. NASA-nın imkanları böyük olduğu üçün arası kəsilmədən o cür obyektləri müşahidə edib belə nəticələr əldə edirlər. Ancaq sonrakı tədqiqatlar bu məlumatların nə dərəcədə düzgün olduğunu göstərəcək. Çünki bu vaxta qədər minlərlə bu tipli obyekt aşkarlansa da, onlarda həyat üçün tələb olunan iz, spektr tapılmayıb".

Qeyd edək ki, NASA-nın Vaşinqton bürosunun yaydığı məlumata əsasən, astronomlar eyni ulduzun orbitində dövrə vuran və Yerin ölçüsündə olan 7 planet aşkarlayıblar.

## 66 yaşlı Şəmkir sakini intihar edib

**Şəmkir sakini sirkə turşusu içərək ölüb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, fevralın 22-də Şəmkir şəhərində yaşayan 66 yaşlı Çingiz Əliyev sirkə turşusundan zəhərlənmə ilə xəstəxanaya yerləşdirilib və orada ölüb.**



## ATƏT PA-nın baş katibi Azay Quliyevə təşəkkür etdi

**Roberto Montella:** "Özbəkistanın bu qurumun işinə cəlb olunmasında Azərbaycanın və ATƏT PA-nın vitse-prezidenti Azay Quliyevin xüsusi rolu var"

**ATƏT Parlament Assambleyasının Vyanada keçirilən 16-cı qış sessiyası fevralın 23-də öz işinə başlayıb. ATƏT PA-nın rəsmi saytı ilə ilk olaraq Daimi Komitənin iclası canlı yayımlanıb.**

Musavat.com xəbər verir ki, Daimi Komitənin iclasında ATƏT PA baş katibi Roberto Montella Özbəkistanın bu qurumun işinə cəlb olunmasında Azərbaycanın və ATƏT PA-nın vitse-prezidenti Azay Qulieyvin rolunu xüsusi qeyd edib və təşəkkürünü çatdırıb. ATƏT PA-nın vitse-prezidenti Azay Quliyev öz növbəsində Özbəkistanın sessiyanın işinə qatılmasını alqışladığını deyib və bu ölkənin ATƏT-in mühüm üzvü olduğunu bildirib. Vitse-prezident çıxışında ATƏT PA-nın baş katibinin fəaliyyətini müsbət qiymətləndirib. Seçki Müşahidə missiyası haqda danışan Azay Quliyev beynəlxalq katibliyə seçki üzrə ixtisaslaşmış hüquqşünasın cəlb olunmasını təklif edib. Onun sözlərinə görə, belə bir mütəxəssisin olması ATƏT PA-nın seçki müşahidə missiyasının işinə müsbət təsir göstərəcək. Qeyd edək ki, ATƏT PA-nın qış sessiya işini plenar iclasda təşkil olunan "Böhran dövründə insan hüquqlarının qorunması" mövzusunda xüsusi debatla davam etdirəcək. Sabah ATƏT PA rəhbərlərinin məruzələri dinləniləcək, Daimi Komitənin iclasında isə ATƏT PA-nın Əsasnaməsinə əlavə və dəyişikliklər məsələsi müzakirə olunacaq.



# Prezident İlham Əliyev avropalı nazirlərin toplantısında

## "Biz nadir və nümunəvi beynəlxalq əməkdaşlıq formatını yarada bildik"

**Fevralın 23-də prezident İlham Əliyev Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində Bakıda keçirilən nazirlərin üçüncü toplantısında iştirak edib. Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin üçüncü toplantısında çıxış edən prezident İlham Əliyev tədbirdə müxtəlif ölkələrdən mötəbər qonaqların iştirak etdiyini deyərək Azərbaycanın Avropa Komissiyası ilə bu mühüm layihənin həyata keçirilməsində sıx əməkdaşlıq qurduğunu bildirib. "Biz nadir və nümunəvi beynəlxalq əməkdaşlıq formatını yarada bildik" deyən, dövlət başçısı "Cənub Qaz Dəhlizi" layihəsinin icrasının gələcək ələqələr üçün də çox vacib amil olduğunu diqqətə çatdırıb.**

Azərbaycanın enerji siyasətinin tarixindən danışan İ.Əliyev 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi"nin gələcək enerji layihələrinin həyata keçirilməsindəki əhəmiyyətli rolundan bəhs etdi, müasir Azərbaycanın nailiyyətlərinin bunun sayəsində mümkün olduğunu bildirib. "Cənub Qaz Dəhlizi"nin icrasında "Şahdəniz" qaz yatağının əhəmiyyətini vurğulayan, bu yatağın verdiyi imkanların Azərbaycanın özünü nəhəng qaz ehtiyatlarına malik ölkə kimi tanıtmasında mühüm rol oynadığını deyən dövlət başçısı çıxışında layihə üzrə regional əməkdaşlığın əhəmiyyətli olduğunu qeyd edib, uzun illər ərzində Azərbaycan, Gürcüstan və Türkiyə tərəfindən icra olunan enerji dəhlizlərini buna misal çəkib.

"Cənub Qaz Dəhlizi"nin həyata keçirilməsindən bir neçə il öncə Azərbaycanla Türkiyə arasında TANAP layihəsinin icrasına dair imzalanan sazişin, həmçinin "Transadriatik" boru kəməri layihəsinin əhəmiyyətini vurğulayan prezident bu cür toplantıların layihənin vaxtında və keyfiyyətlə yerinə yetirilməsində xüsusi rol oynadığını diqqətə çatdırıb. Ötənilki görüşdən sonra bir çox irəliləyişlərin olduğunu, "Şahdəniz-2" layihəsinin 90 faiz səviyyəsində həyata keçirildiyini, TANAP və TAP layihələrində də mühüm uğurların müşahidə edildiyini deyən İ.Əliyev Azərbaycanın "Abşeron" qaz yatağının işlənilməsinə başladığını, bunun da ölkəmizin qaz potensialının yalnız "Şahdəniz"lə məhdudlaşmadığını göstərdiyini deyib.




XXI əsrin layihəsi olan "Cənub Qaz Dəhlizi"nin həyata keçirilməsində beynəlxalq maliyyə qurumlarının fəaliyyətini vurğulayan dövlət başçısı Avropa maliyyə təşkilatlarının da layihənin icrasında yaxından iştirak etməsinin əhəmiyyətli olacağını bildirib. ""Cənub Qaz Dəhlizi" enerji təhlükəsizliyi məsələsidir və enerji təhlükəsizliyi ölkələrin milli təhlükəsizliyidir" deyən prezident bu sahədə mövcud beynəlxalq əməkdaşlığı qarşılıqlı etimadın nümunəsi adlandırıb, layihə çərçivəsində nəzərdə tutulan ekoloji məsələlərin yüksək standartlara əsaslandığını bildirib və konfransın işinə uğurlar arzulayıb.

Azərbaycanın energetika naziri Natiq Əliyev prezidentin təlimat və tövsiyələrinin "Cənub Qaz Dəhlizi" layihəsinin icrasında mühüm rol oynadığını, bu cür toplantıların layihə üzrə həll variantlarını tapmağa imkan verdiyini deyib.

Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti Maroş Şevçoviç prezidentə Azərbaycanın üçüncü dəfə bu toplantıya ev sahibi etdiyinə görə minnətdarlığını bildirib, ötənilki görüşdən sonra layihə üzrə böyük irəliləyişlərin olduğunu deyib. Maroş Şevçoviç Prezident İlham Əliyevin Brüsselə son səfərinin əhəmiyyətli olduğunu, Avropa İttifaqı ilə Azərbaycan arasında əməkdaşlığı nəzərdə tutan çərçivə sazişinin imzalandığını, enerji təhlükəsizliyi ilə bağlı səmərəli müzakirələrin aparıldığını diqqətə çatdırıb. ""Cənub Qaz Dəhlizi" layihəsi Avropa İttifaqı üçün strateji əhəmiyyət daşıyır və onun Avropa üçün nə dərəcədə vacib olduğunu hamımız anlayırıq", - deyən Maroş Şefçoviç də qitənin gələcəyi üçün strateji əhəmiyyət daşıyan bu layihəyə Avropa maliyyə təşkilatlarının da diqqət göstərməsinin vacibliyini vurğulayıb, layihənin vaxtında icra olunacağına əminliyini ifadə edib.

❑ **President.az**

# Azərbaycanda yayımı dayandırılan kanallar...

## Hüquqşünas: "Abonentlər məhkəməyə müraciət edib kompensasiya tələb edə bilər"

**Fevralın 22-də Türkiyənin məşhur "FOX TV" kanalının Azərbaycandakı kabel televiziyalarındakı yayımı dayandırılıb. Beləliklə, artıq bu kanalın yayımı ölkəmizdəki analoq, rəqəmsal və IPTV yayım növlərində yoxdur. Kanalın ölkəmizdəki yayımının dayandırılması ilə bağlı "Ailə TV" yalnız bir cümlə ilə bunun Milli Televiziya və Radio Şurasının göstərişi olduğunu izah edir. "FOX TV"nin yerinə başqa kanal yayımlanacaq.**

Məsələyə aydınlıq gətirmək üçün "Yeni Müsavat"ın əməkdaşı MTRŞ ilə əlaqə saxlayıb. Qurumun şöbə müdiri Təvəkkül Dadaşov məsələ ilə bağlı məlumatlı olmadığını deyib. MTRŞ-nin sədr müavini Qafar Cəbiyev isə azvision.az saytına bildirib ki, qurumun "FOX TV"nin yayımının dayandırılması ilə bağlı qərarı yoxdur. MTRŞ rəsmisinin sözlərinə görə, hər hansı kanalı yayımlayıb-yayımlamamaq operatorların daxili işidir:

"Kabel şəbəkələrinə hər hansı kanalı yayımlayıb-yayımlamaq üçün heç kim müdaxilə etmir. Sosial şəbəkələrdə bizim adımızdan yayılan məlumatlar yalandır. Onlar özləri sosial şifarişdən asılı olaraq bu və ya digər kanalı öz paketlərinə daxil edə və yaxud çıxara bilərlər. Bu, onların daxili işləridir".

Xatırladaq ki, buna qədər Azərbaycanda bir neçə böyük nüfuza malik kanalın yayımı dayandırılıb. Məsələn, ötən il ölkəmizdə də kifayət qədər izləyicisi olan məşhur "Kanal D" televiziya kanalının yayımı dayandırılmışdı. Kabel televiziyaları bununla bağlı öhdəliyi öz üzərindən götürərək açıqlama verib bildirmişdilər ki, adıçəkilən kanalın bütün ölkə ərazisində yayımının dayandırılması şirkətlərin öz qərarı deyil, bununla bağlı xüsusi göstəriş verilib. Beləliklə "Kanal D"nin nümayişi qadağan olunaraq yerinə "TV 2" yayımlanmağa başladı. Ölkəmizdə qadağan aqibəti ilə üzləşən digər Türkiyə kanallarından "CNN Türk", "Samanyolu Haber"i göstərmək olar. Yerli ekspertlər adıçəkilən kanalların Azərbaycana qarşı qərəz nümayiş etdirdiyi üçün bu cür aqibətlə üzləşdiyini qeyd edirlər.




Qeyd edək ki, Azərbaycanda "FOX TV" kanalının kifayət qədər izləyicisi var idi. Heç bir xəbərdarlıq edilmədən və əsas gətirilmədən kanalın yayımdan qaldırılması kabel televiziya abonentlərinin ciddi narazılığına səbəb olub. Abonentlərin əksəriyyəti izlədikləri kanallara görə ödəniş etdiklərini, qəfildən yayımı dayandırılan nüfuzlu kanalın yerinə başqa kanalın daxil edilməsini doğru olmadığını, bu baxımdan, hüquqları pozulduğu üçün məhkəməyə müraciət edəcəklərini bildirirlər.

Bəs abonentə xəbərdarlıq edilmədən kabel televiziyasından kanalların yayımının dayandırılması və ya əvəz edilməsi nə dərəcədən qanun pozuntusu hesab edilir?

**Media üzrə hüquq eksperti Ələsgər Məmmədli mövzu ilə bağlı "Yeni Müsavat"a danışıb:** "Burada qanun pozuntusu var. MTRŞ qanunları sistemli şəkildə səlahiyyətlərini aşır və ona aid olmayan məqamlara qarışır. Kabel şəbəkəsinin necə düzənlənəcəyi ilə bağlı hər hansı göstəriş olması qanunda yoxdur. MTRŞ özü ittiham müəyyən edib və kanalın yayımının dayandırılması haqda kabel televiziyasına göstəriş verib. Artıq bir çox kabel televiziyalarında adıçəkilən kanalın yayımı dayandırılıb, digərlərində isə yəqin ki, yaxın günlərdə çıxarılacaq. Bu, bilavasitə ifadə azadlığının məhdudlaşdırılmasıdır. Konstitusiyamızın 50-ci maddəsinə görə, hər kəs istədiyi məlumatı əldə etmək hüququna malikdir. Şəxsin istədiyi məlumat "FOX TV"də də ola bilər və bu baxımdan, onun yayımının məhdudlaşdırılması yolverilməzdir".

**Ekspert qeyd edib ki, abonentlər haqlarının pozulduğuna görə kompensasiya tələb etmək hüququna malikdirlər:**

"Məsələnin ikinci tərəfi kabel televiziyalarının özbaşına hərəkətləri ilə bağlıdır. Əgər abonentlə müqavilə bağlanılıbsa və onun razılığı olmadan kanalın yayımının dayandırılması məntiqlə mümkün deyil, bu qarşı tərəfə məsuliyyət yaradır. Bu halda abonentlərin hüququ var ki, məhkəmə müraciət edib kompensasiya tələb etsin.

Çox təəssüf ki, bu cür hal birinci dəfə deyil, bundan əvvəl də kabel şəbəkəsindən xəbərdarlıq edilmədən bir çox kanalların yayımdan çıxarılmasının şahidi olmuşuq".

❑ **Xalidə GƏRAY**



# Ömürlük məhkumların işləri üzrə işçi qrup yaradılıb



## Əliməmməd Nuriyev: "Ümid edirik ki, martda ömürlük məhkumlar da əfv olunacaq"

**Azərbaycanda son bir neçə gündə 3 məhkum dünyasını dəyişib. Ölən məhkumlar Penitensiar Xidmətin Müalicə Müəssisəsində müalicə alan 1939-cu il təvəllüdlü Arif Zeynəddin oğlu Mahmudov, 1962-ci il təvəllüdlü Əli Cəlal oğlu Məmmədov və 1958-ci il təvəllüdlü Elmixan İbrahim oğlu Bagiyevdir. Məlumata görə, Arif Mahmudov ömürlük məhkum olub.**

Konstitusiya" Araşdırmalar Fondunun prezidenti Ədliyyə Nazirliyi yanında Penitensiar Xidmətə Nəzarət üzrə İctimai Komitənin üzvü Əliməmməd Nuriyev deyir ki, hazırda ömürlük həbsdə olan məhkumların işləri üzrə işçi qrup yaradılıb: "Qrup üzvləri ömürlük həbsdə olan şəxslərin işləri üzrə diqqətlə araşdırma aparırlar. Söhbət ondan gedir ki, qanunvericilik hər məhkuma cəzasını müəyyən qədər çəkdikdən sonra cəzasının şərti cəza ilə əvəzlənməsi, rejim növünün dəyişdirilməsi, əfv üçün müraciət etmə hüququnu tanıyır. Bu başqa məsələdir ki, həmin müraciətlər təhlil edilir və ya edilmir. Azərbaycanda cəza siyasəti daha çox humanizm prinsiplərinə söykənir. Məhkumlara azadlığa çıxmaq üçün şans verilir. Bu, qanunda nəzərdə tutulub. Azərbaycanda praktikada olub ki, ömürlük azadlıqdan məhrum olunmuş şəxslərin cəzası müddətli həbslə əvəzlənib və ya ümumiyyətlə azad olunublar".

**Ə.Nuriyev qanunda xəstə ömürlük məhkumların azad edilməsinin nəzərdə tutulduğunu da açıqladı:** "Məhkum edilmiş şəxs Ədliyyə və Səhiyyə nazirliklərinin birgə təsdiqlədikləri xəstəliklər siyahısındakı 18 ağır xəstəlikdən birinə tutulubsa, komissiya təşkil olunur. Komissiya üzvləri məhkumun sağalmaz ağır xəstəliyə tutulması haqda rəy hazırlayır və həmin rəy əsasında məhkəmə həmin məhkumun azad edilməsi haqda qərar verə bilər. Azərbaycanda bu praktikadan dəfələrlə istifadə edilib".

**Ə.Nuriyev bildirib ki, "Əfv etmə haqqında" əsasnaməyə görə ömürlük məhkum edilmiş şəxs cəzasının 10 ilini çəkdikdən sonra əfv olunması ilə bağlı müraciət edə bilər. Müraciətə baxılarkən prezident həmin şəxsin cəzasını 25 ilə qədər azadlıqdan məhrumetmə cəzası ilə əvəzləyə bilər:** "Hesab edirəm ki, Azərbaycan Cinayət Məcəlləsində də müvafiq dəyişikliklər olmalıdır. Xüsusilə ömürlük cəzaçəkmə növündə cəza çəkənlərlə bağlı dəyişikliklər olmalıdır. Yəni şəxs etdiyi cinayət əməlindən asılı olaraq onun hansı müddətdən sonra şərti cəzaçəkmə ilə bağlı, cəza növünün dəyişdirilməsi və daha yüngül cəza üçün müraciət etməsi hüququ hökmün özündə də göstərilsin. Bu halda mütləq şəkildə cinayətin xarakteri, məhkum edilən şəxsin şəxsiyyəti, zərərçəkənin mövqeyi nəzərə alınmalıdır. Bu ölkə başçısının imzaladığı "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" sərəncamı ilə səsləşən bir addım olardı".

**Ə.Nuriyev ölkə başçısının mart ayında əfv sərəncamı verəcəyini də istisna etmədi:** "Bizlər cənab prezidentin əfv sərəncamı verəcəyini gözləyirik. Ümid edirik ki, əfv edilənlər sırasında ömürlük azadlıqdan məhrum edilən şəxslər də olacaqlar".

❑ **E.MƏMMƏDƏLİYEV**

# Hakimiyyətin "kadr bankı"nda kimlər var- sabiq nazirdən açıqlamalar

## Fikrət Yusifov: "Bir dövlətin kadr ehtiyatı onun sosial-iqtisadi inkişafının təminatçısıdır"

**Azərbaycanda kadr dəyişikliklərinin sürətli aparılmamasının səbəblərindən biri kimi bir çox sahələr üzrə yüksək səviyyəli kadrların olmaması göstərilir. Bu fikirdə olanlar iqtidarın lazımi kadr bazasının formalaşmadığına diqqəti çəkir. Bir çox sahələr üzrə savadlı kadr çatışmazlığı hətta iki il öncə ən yüksək səviyyədə də etiraf edilmişdi.**

Bütün bunlara rəğmən, hakimiyyət daxilində xeyli vaxtdır bir islahat, kadr yenilənməsi prosesi gedir. Bu proses sürətli olmasa da getməkdə davam edir.

Xaricdə təhsil almış, bir neçə əcnəbi dil bilən, nanotexnologiyaların ən son yeniliklərini mənimsəmiş kadrların önə çəkilməsi prezident İlham Əliyevin son zamanlar çıxışlarında da əsas tezislərdən birinə çevrilib. Ola bilsin ki, bu, tam açıq şəkildə ifadə olunmur, amma yarıtmaz məmurların ən sərt tənqidi əslində onların əvəzlənəcəyi anlamına gəlir.

Ekspertlər hesab edir ki, bu prosesin uğurlu nəticələnməsi üçün xaricdə təhsil almış, bir sıra beynəlxalq təşkilatlarda uğurla fəaliyyət göstərən gənclərdən ibarət "kadr bankı" yaradılmalıdır. Xüsusilə diplomatiya, iqtisadiyyat, menecment, təhsil və digər sahələrdə ehtiyat kadrlardan istifadə edilməlidir. Postneft dövrü prezidentin çıxışlarından da göründüyü kimi, çox və daha çox işləmək tələb edir.

Rusiyada və bir çox ölkələrdə iqtidarın "kadr bankı" sayılan xüsusi qurumlar var ki, ayrı-ayrı sahələr üzrə savadlı mütəxəssislər oraya cəlb edilir və dövlət, hökumət vəzifələrinə təyinatlarda həmin kadrlardan istifadə olunur. Azərbaycanda hələ ki bu yoxdur. Bəs nə üçün yaradılmır və buna ehtiyac varmı? Azərbaycanda belə bir "kadr bankı" formalaşdırmaq üçün kifayət qədər savadlı kadrlar varmı?



**Keçmiş maliyyə naziri, iqtisadçı professor Fikrət Yusifov "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, bir dövlətin kadr ehtiyatı onun sosial-iqtisadi inkişafının təminatçısıdır. Bu sahədə bəlli beynəlxalq təcrübə mövcuddur. Eyni zamanda bilmək lazımdır ki, "kadr bankı"nın yaradılması deyildiyi qədər də asan deyil. Burada kadrların sahələr üzrə necə seçilərək banka daxil edilməsindən tutmuş, sonradan həmin kadrlardan necə və hansı hallarda istifadə edilməsinə qədər bir çox məsələlər tam aydın bir şəkildə öz əksini tapmalıdır:** "Bir sözlə, ortada banka kadrların seçilib təklif olunmasının bəlli mexanizmi olmalıdır. Bir adamın və ya bir neçə adamın təklifi ilə "kadr bankı"nı formalaşdırmaq təhlükəli ola bilər. Çünki ehtiyatda dayanan və gələcəkdə vəzifəyə təyin ediləcək kadrın bütün tələblərə cavab verməsi bu bankı yaratmağın başlıca şərtidir. Məsələn, bir kadrın peşəkarlığı yüksək, təşkilatçılıq qabiliyyəti zəif olsa, rəhbər kimi xarizması olmazsa, onun bu banka daxil edilməsi nə fayda gətirə bilər? Bu səbəbdən seçim elə olmalıdır ki, banka daxil edilən kadr bu misalda çəkdiyimiz bütün cəhətləri özündə birləşdirə bilsin".

**F.Yusifov vurğuladı ki, kadr bankının yaradılması kadr məsələlərinin həllində ən səmərəli bir vasitədir:** "Sovetlər dövründə kadrların seçilib yerləşdirilməsində bu vasitədən çox geniş istifadə olunurdu. Lakin o dağılandan sonra bu sahədəki işlər unuduldu. Rusiyada hazırda bu məsələni tənzimləyən qanunvericilik bazası mövcuddur, ancaq onun hələ tam təkmil olduğunu demək çətindir. Yeqin buna zaman lazımdır. Bizdə də bu bankın yaradılması çox zəruri bir məsələdir. Hesab edirəm ki, hökumət məsələnin vacibliyini nəzərə alıb, tezliklə belə bir bankı yaratmağın hüquqi əsaslarının formalaşması istiqamətində zəruri addımlar atacaq. Hüquqi baza yaradıldıqdan sonra isə "kadr bankı"nın formalaşması mümkün olacaqdır".

❑ **Etibar SEYİDAĞA**

# Masallıda tanınmış Şeyxin müəmmalı həbsi

## Nüfuzlu ilahiyyatçı Şeyx Sərdar Hacıhəsənlinin icra başçısının sifarişi əsasında saxlandığı deyilir...

**Fevralın 22-də Masallıda nüfuzlu ruhani Şeyx Sərdar Hacıhəsənli (Babayev) həbs olunub. Artıq ruhani barəsində həbs-qətimkan tədbiri seçilib və onun Bakı İstintaq Təcridxanasına gətiriləcəyi haqda yaxınları tərəfindən məlumat verilib.**




Qeyd edək ki, Hacı Sərdarla birlikdə bir neçə yerli dindar fəal, o cümlədən cənubnews saytının redaktoru Mirələm Həşimov da saxlanılıb. Ancaq onlar daha sonra azad ediliblər. Ruhaninin vəkili Cavad Cavadov özünün facebook hesabından yazıb ki, ilahiyyatçı barədə bir ay əvvəl Masallı Rayon İcra Hakimiyyəti başçısının şikayəti əsasında araşdırmalar başladılıb. Onun sözlərinə görə, Hacı Sərdara qarşı Cinayət Məcəlləsinin 168-1.3 maddəsi ilə ittiham verilib. Həmin maddə dini təbliğat, dini ayin və mərasimlərin aparılması tələblərini pozmaya görə məsuliyyəti nəzərdə tutur. 168-1.1. İslam dininə aid ayin və mərasimlərin xaricdə dini təhsil almış Azərbaycan Respublikasının vətəndaşı tərəfindən aparılması - iki min manatdan beş min manatadək miqdarda cərimə və ya bir ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır. 168-1.2. Əcnəbi və ya vətəndaşlığı olmayan şəxs tərəfindən dini təbliğat aparılması - bir ildən iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. 168-1.3. Bu məcəllənin 168-1.1-ci və 168-1.2-ci maddələrində nəzərdə tutulmuş əməllər.

Ancaq yaxınlarının bildirdiyinə görə, Şeyx Sərdarın elə bir problemi olmayıb. Şeyx İranda dini təhsil alsa da, Azərbaycanda da dini təhsili olub. Bundan başqa, onun məsciddə imamlıq etməsi qanunsuz olmayıb, əksinə, savadlı din xadimi olması və xalqın ona böyük hörməti olması səbəbindən QMİ-nin bölgə nümayəndəliyi Şeyx Sərdarı məsciddə imamlıq etməyə dəvət edib.

Sərdar Hacıhəsənli İranda ilahiyyat təhsili alıb və daha sonra Qazaxıstanda bir müddət universitetdə müəllim kimi fəaliyyət göstərib. Bir neçə il əvvəl Azərbaycana qayıdaraq dini fəaliyyətlə məşğul olub, maide.az saytını təsis edib. Dindarların hüquqlarının qorunması ilə bağlı həmrəylik təşəbbüsləri istisna olmaqla, hansısa ictimai-siyasi fəaliyyəti olmayıb, dini maarifçilik işləri görüb. Bundan başqa, Azərbaycan Ruhanilər Məclisinin (ARM) üzvü olub.

Maraqlıdır ki, vəkilin açıqlamasında da qeyd olunduğu kimi, S.Hacıhəsənlinin barəsində cinayət işi açılması tələbini məhz Masallı rayon icra başçısı Rafil Hüseynov irəli sürüb. Başçının tanınmış ruhaninin həbsini tələb etməsinin motivi aydın deyil. Çünki məntiqlə İH rəhbərliyi polisə müraciət etməmişdən əvvəl rəsmi qaydada Şeyx Sərdara məsciddə imamlıq etməyi qadağan edə və ya məscidə imam təyinatına cavabdeh olan QMİ-yə müraciət edərək Şeyx Sərdarın məsciddən uzaqlaşdırılmasını tələb edə bilərdi. Ancaq başçı bunu etməyib və daha sərt yola baş vuraraq, onu həbs etdirib.

Nüfuzlu din xadiminin müəmmalı şəkildə həbsi dini camiədə narahatlıq yaradıb, müxtəlif şayiələrə səbəb olub. Artıq məsələ ilə bağlı Azərbaycan Ruhanilər Məclisi, Dini Etiqad və Vicdan Azadlıqlarını Müdafiə Mərkəzi (DEVAMM), Azərbaycan İslam Partiyası, Moskvada yaşayan ruhanilər və dindarlar bəyanat yayaraq ruhaniyə azadlıq tələb ediblər.

Bu hadisə son illərdə Azərbaycandakı şiə ruhanilərə qarşı aparılan silsilə həbslərin növbəti dalğası kimi qiymətləndirilir. Faktiki olaraq heç bir hüquq pozuntusuna yol verməyən, yalnız dini fəaliyyətlə məşğul olan nüfuzlu ilahiyyatçının məsciddə namaz qıldırdığı üçün həbs olunması hadisənin sifariş olması ilə bağlı şübhələrə səbəb olur.

❑ **KƏNAN**

YENİ MÜSAVAT
N 42 (6656) 24 fevral 2017

**Azərbaycanda daim müzakirə edilən məsələlərdən biri qonşu Rusiya ilə yaxın əlaqələrdir. Əksəriyyət başımıza gələn bəlaların kökündə şimal qonşumuzu görməklə yanaşı, torpaqlarımızın itirilməsində əsas rol oynayan Kremllə sıx əlaqələri doğru saymasa da, Cənubi Qafqazda yeganə güc mərkəzi hesab edilən bu dövlətlə yaxın münasibətləri doğru hesab edənlər də az deyil.**


Ayaz Mütəllibov

# Eks-prezidentdən "Yeni Müsavat"a önəmli açıqlamalar

## Ayaz Mütəllibov: "Hakimiyyətdən getməyim, Qarabağın itirilməsinə səbəb oldu"

**"Yaxşı olar ki, Çingizin Xocalıdan çəkdiklərini Azərbaycanın müvafiq orqanları təhlil etsin"**

Aprelin əvvəllərində şimal qonşumuzla diplomatik əlaqələrin qurulmasının 25 ili tamam olacaq.

Bütün bunlarla yanaşı, hər ilin bu günlərində Xocalı faciəsi ilə əlaqədar ölkə gündəmində əsas müzakirə olunan şəxslərdən biri Azərbaycanın ilk prezidenti Ayaz Mütəllibovdur. Buna səbəb də əsrin faciəsinin onun prezidentliyi dönəminə təsadüf etməsi, eyni zamanda martın əvvəllərində ölkə rəhbərliyi postundan istefa verməsidir. Eks-prezidentlə bu və ya digər gündəmdə olan məsələlərlə bağlı söhbət etdik.

***- Ayaz müəllim, Azərbaycanla Rusiya arasındakı diplomatik əlaqələrin qurulmasının 25 ili yaxınlaşır. Bu illəri necə dəyərləndirirsiz? İtirdiklərimiz, yoxsa qazandıqlarımız çox olub?***

- Diplomatik münasibətlərin davamlılığını və indiki səviyyəsini çox yaxşı qiymətləndirirəm. Rusiya və Azərbaycan arasındakı diplomatik körpü etibarlıdır. Azərbaycan bundan heç nə uduzmur.

***- Şimal qonşumuzla əlaqələrin hansı üstünlükləri var?***

- Həm iqtisadi, həm də siyasi nöqteyi-nəzərdən Rusiya dövləti və imkanlı ölkədir. Bütün dünya istəyir ki, Rusiyanın resurslarından istifadə etsin. Belə ölkənin Azərbaycana qonşu olması, onun üçün iqtisadi və tranzit imkanları yaradır. Biz bu imkanlardan istifadə etməliyik. Bundan əlavə, Rusiyada bir neçə milyondan artıq azərbaycanlı çalışır və ailələrini dolandırırlar. Faktiki olaraq, azərbaycanlılar bu saat Rusiyanın iqtisadi rıçaqlarını əllərində saxlayırlar və böyük imkan sahibidirlər. Azərbaycan Rusiyada olan azərbaycanlıların imkanlarından istifadə etməklə, ölkəmizi düşdüyü iqtisadi böhrandan qurtara bilər, Rusiya ilə ciddi iqtisadi əlaqələr qurar.

Siyasi nöqteyi-nəzərdən Azərbaycan-Rusiya münasibətlərini Qarabağa yönəltməli idik. Biz Azərbaycan-Rusiya münasibətlərini düzgün qiymətləndirməyib, başqa partnyor seçdik, məsələn, NATO ölkəsi Türkiyəni. Əlbəttə ki, o dövrdə bilirdik ki, Qarabağın açarı Rusiyanın əlindədir və yeni Azərbaycan dövləti Rusiya ilə dostluq münasibətlərini pozmamalı idi. Biz daha çox üstünlüyə nail ola bilərdik. Ancaq Rusiyaya qarşı mövqe tutduq.

***- Cənubi Qafqazda söz sahibi olan Rusiya ilə dostluq bu qədər önəmlidirmi?***

- Bəli. Bu saat Rusiya güclənməkdədir. Bunu ABŞ-ın yeni prezidenti Tramp və onun ətrafı yaxşı bilir və Rusiya ilə yaxınlaşmaq istəyirlər. Dərinə getsək, görərik ki, bu proses çox sürətlə və açıq şəkildə gedir. Biz niyə Rusiyaya yaxın olmayaq? Çünki gizlin deyil ki, Qarabağın taleyi Rusiyanın əlindədir.

***- Əgər münasibətlər gərginləşərsə, ölkəmizin müstəqilliyinin təhlükə altına düşəcəyi barədə hər zaman fikirlər səslənir. Bu fikirləri bölüşürsüz?***

- Yox, çünki 2 mart 1992-ci ildə Azərbaycanı BMT-yə tanıtmışam. Bu nə deməkdir? Azərbaycan müstəqil dövlətdir və heç bir dövlət onun ərazi bütövlüyünə xələl gətirə bilməz. Rusiyaya qarşı belə fikirləri ortaya atanlar Azərbaycan-Rusiya dostluğunu istəməyənlərdir və bu münasibətlərə xələl gətirənlərdir. Biz bunun nəticəsində Avrasiya və Şanxay ölkələri birliyindən kənarda qalmışıq. Ancaq bu birliklərdən kənarda qalmamalıyıq.

***- Niyə xalq arasında daim Rusiya tənqid hədəfi olur, bu dövlətlə əlaqələr qınanır? Bu, tarix boyu başımıza gələn bəlaların çoxunda rus izinin axtarılması, xüsusilə Dağlıq Qarabağın itirilməsində Rusiyanın əlinin olması kimi fikirlərlə bağlıdır, yoxsa başqa səbəblər var?***

- Əlbəttə ki, xalqın adından heç kim danışa bilməz. Xalq bu saat bir tikəsinin hayındadır. Xalqın belə fikirləri yoxdur. Bu, bəzi siyasətçilərimizin iddialarıdır. Qarabağın itirilməsini Rusiyanın adıyla bağlamaq düzgün deyil. Bizim torpaqlarımızı ermənilər zəbt ediblər. Bunu yayanlar istəyirlər ki, göstərsinlər ki, ruslar ermənilərin arxasında durublar. Daha düzünü desək, azərbaycanlıları bununla qorxudurlar. Əksinə, biz düzgün siyasət qursaq, ruslar bizim tərəfdə olacaqlar, çünki Azərbaycan bir ölkə kimi Rusiyaya daha yaxındır və onun maraq dairəsindədir. Bir vaxt vardı, düzgün siyasət nəticəsində ruslar Azərbaycandan erməni yaraqlılarını çıxarırdılar. Qarabağda da məsələləri sülh yolu ilə həll edə bilərdilər.

***- Xocalı faciəsinin növbəti ildönümü gəlir. Hər ilin bu günlərində tənqid hədəfi olan əsas şəxs olursunuz. 25 il öncəki o faciəyə 25 ildən sonra baxışınız...***

- Bu faciə olmaya da bilərdi. Qarabağ cəbhəsində olanlar vahid cəbhədən çıxış edib, düşmənin qarşısını ala bilərdilər. Əslində isə onlar mənim işlərimə mane oldular. Göndərdiyim köməyi Xocalıya yox, başqa istiqamətə yönəltdilər. Xocalı köməksiz qaldı. Əfsuslar olsun ki, hakimiyyət davası edib, cəbhəni başsız qoymuşdular. Bundan istifadə edən erməni yaraqlıları Xocalıya divan tutdular.

***- Xocalı faciəsinin ildönümü ərəfəsində Çingiz Mustafayevin çəkdiyi süjetlə bağlı yenə gərəksiz iddialar gündəmi zəbt edib. Bu məsələyə o zamankı ölkə rəhbəri olaraq mövqeyiniz necədir?***

- Çingizin çəkdiklərindən xəbərim var. Onun çəkdiklərindən belə çıxırdı ki, Xocalı qırğınında iştirak edənlərin arasında satqınlarımız da olub. Ancaq mənə imkan vermədilər ki, Çingizin gətirdiyi faktları hərtərəfli təhlil etdirim. Bu yaxınlarda sosial şəbəkələrdə yenə də onun çəkdiklərini yayıblar. Yaxşı olar ki, Çingizin göstərdiklərini Azərbaycanın müvafiq orqanları təhlil etsin. Çünki söhbət milli xəyanətdən gedir.

***- Son aylarda ikinci Qarabağ savaşının başlayacağı ilə bağlı fikirlərə daha çox rast gəlirik. Hətta ikinci aprel savaşının olacağı barədə iddialar da var. Xüsusilə düşmən ölkədəki parlament seçkiləri ilə əlaqədar Ermənistanın qarışacağı vurğulanır. Bunu ölkəmiz adına bir şans kimi dəyərləndirirlər...***

- Bu sirr deyil ki, Azərbaycan tərəfi sülh yolu ilə Qarabağı və torpaqlarımızı qaytarmasa, beynəlxalq hüquq normalarına arxalanıb, torpaqlarımızı müharibə yolu ilə azad edə bilərik. Aprel döyüşləri onu göstərdi ki, Qarabağda müharibənin getməsinin tərəfdarları nə Rusiya, nə də İrandır. Odur ki, Rusiya tərəfi müharibəni dayandırdı və Azərbaycana bu məsələnin tezliklə sərhədlərinin dəyişdirilməyəcəyi prinsipi əsasında həll edəcəyinə söz verdilər. Cənubu Qafqazda müharibənin getməsi, NATO qoşunlarının da bura girməsi deməkdir. Odur ki, Rusiya tərəfi öz mövqelərini Cənubi Qafqazda itirməmək üçün, müharibə onun marağında deyil. Rusiya və İran Cənubi Qafqazda sülhün təmin olunmasını istəyəcəklər. Odur ki, müharibənin olacağına inanıram.

***- Son vitse-prezident və bir nazirliyin ləğv edilib, digərinə birləşdirilməsini struktur islahatlarının başlanğıcı kimi qəbul etmək olarmı?***

- Bəli. Yeni yaranmış strukturların mahiyyəti ölkədə ciddi siyasi və iqtisadi islahatların həyata keçirilməsinə yönəldilib.

***- Hakimiyyətdən gedişinizin 25 ilinə az müddət qalır. O illərə bugünkü baxışınız necədir? Getməsəydiniz hakimiyyətdən, nələr dəyişə bilərdi? Torpaqlarımız itirilərdi yenə?***

- Hakimiyyətdən getməyim ölkədə siyasi vəziyyəti daha da kəskinləşdirdi, Qarabağın itirilməsinə səbəb oldu. Hamı bilirdi ki, mən rus hərbiçiləri ilə danışmışdım və martın 6 -da Qarabağdan erməni yaraqlılarını təmizləyəcəkdim. Ancaq qoymadılar. Məni hakimiyyətdən uzaqlaşdırdılar...

❑ **Cavanşir ABBASLI**



# Aleksandr Lapşin Bakıda anası ilə görüşdü

**Azərbaycanın işğal altındakı ərazilərinə qanunsuz səfər etməkdə təqsirləndirilərək həbs edilib Azərbaycana ekstradisiya edilən blogger Aleksandr Lapşinin anası Bakıya gəlib.**

"Trend"in məlumatına görə, A.Lapşinin anası Bella Lapşina Bakıya gələrək oğlunu müdafiə etmək üçün yeni vəkillə müqavilə imzalayıb. Vəkil artıq 1 saylı Bakı İstintaq Təcridxanasında A.Lapşinlə görüşüb, onun saxlanma şəraiti və səhhəti ilə də maraqlanıb. Yeni vəkilin orderi artıq istintaqa da təqdim edilib.

B.Lapşina Rusiya və Belarus səfirlikləri vasitəsilə 1 saylı Bakı İstintaq Təcridxanasında saxlanılan oğlu ilə də görüşüb.

Xatırladaq ki, Azərbaycan Baş Prokurorluğunun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində istintaqı aparılan cinayət işi üzrə ayrı-ayrı dövlətlərin vətəndaşlığını daşıyan A.Lapşin Azərbaycanın dövlət sərhədini qanunsuz olaraq keçmə, ərazi bütövlüyünü parçalamağa yönələn açıq çağırışlar etmə əməllərinə görə təqsirləndirilən şəxs qismində cəlb edilib beynəlxalq və dövlətlərarası axtarışa verilməsi ilə əlaqədar 2016-cı il dekabrın 15-də Belarusun hüquq-mühafizə orqanları tərəfindən Minskdə saxlanılaraq, 2017-ci il fevralın 7-də Azərbaycana ekstradisiya olunub.

Təqsirləndirilən şəxs A.Lapşin beynəlxalq qanunvericiliyin tələblərinə əsasən Azərbaycana ekstradisiya olunduqdan dərhal sonra - fevralın 8-də Xarici İşlər Nazirliyi vasitəsilə vətəndaşı olduğu ölkələrin Azərbaycandakı səfirliklərinə rəsmi məlumatlar təqdim edilib.

Fevralın 8-də cinayət-prosessual qanunvericiliyin tələblərinə müvafiq qaydada təqsirləndirilən şəxs A.Lapşinin hüquqi yardım almaq və müdafiə hüququ tam təmin edilərək müdafiəçi və tərcüməçinin iştirakı ilə ona ittihamlar elan edilib, ittihamın mahiyyəti, təqsirləndirilən şəxs kimi hüquq və vəzifələri izah olunmaqla dindirilib.

A.Lapşin Ədliyyə Nazirliyin Penitensiar Xidmətin Bakı İstintaq Təcridxanasına daxil olan zaman tibbi müayinədən keçirilib və praktiki sağlam hesab edilməklə hər hansı müalicəyə zərurət yaradan patologiya aşkar olunmayıb.

Hazırda cinayət işi üzrə zəruri istintaq hərəkətləri davam etdirilir.

**Azərbaycan prezidentinin ölkənin 1-ci vitse-prezidentini təyin etməsindən sonra müzakirə olunan məsələlərdən biri vitse-prezidentlərin kimlər olacağıdır. Vitse-prezident məsələsi ilə bağlı son iki gündə bir çox suallara yol açan maraqlı proses yaşandı. Belə ki, 1-ci vitse-prezident təyinatından cəmi bir gün sonra-fevralın 22-də saytlarda 23 fevralda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin fövqəladə sessiyasının çağırıldığı və muxtar respublikanın konstitusiyasına dəyişikliklər ediləcəyi xəbəri yayıldı.**

# Vasif Talıbovun vitse-prezident olacağı xəbəri təkzib edildi

## Naxçıvan MR-in Ali Məclisinin fövqəladə sessiyasında konstitusiya düzəlişləri qəbul olundu, Ali Məclis sədrinin vitse-prezident elan ediləcəyi barədə xəbərlər haradan qaynaqlanıb?





Bu barədə yazan saytlar xəbəri Naxçıvan MR-in rəsmi mətbu orqanı "Şərq qapısı" qəzetin istinadən yaydığını qeyd etdi. Xəbərdə deyilirdi ki, Ali Məclisinin fövqəladə sessiyasının gündəliyinə Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına dəyişikliklər Azərbaycanın idarə sistemində dəyişikliklərlə-vitse-prezident institutunun tətbiqi ilə bağlıdır: "Elə həmin məlumatlara görə, Naxçıvanın Ali Məclisinin sədri Vasif Talıbov Azərbaycanın vitse-prezidenti elan ediləcək. Çünki Ali Məclisin sədri vəzifəsi Azərbaycanın vitse-prezidenti postuna bərabərləşdirilib".

**Bu xəbər 24 saatdan artıq əksər media orqanlarında tirajlandı. Lakin heç bir hakimiyyət təmsilçisindən yayılan xəbərə hər hansı şəkildə reaksiya olmadı. Və daha maraqlı hadisə fevralın 23-də günün ikinci yarısı baş verdi. Belə ki, "Şərq qapısı" qəzetinin redaksiyasından modern.az saytına açıqlama verilərək bəzi müəmmalara aydınlıq gətirildi. Sitat:** "Naxçıvan Muxtar Respublikasının fövqəladə deyil, 5-ci sessiyası çağırılacaq. Ali Məclisin sədri Vasif Talıbovun vitse-prezident elan olunacağı xəbəri bizim qəzetdə yayımlanmayıb. Vasif müəlllimlə bağlı heç bir informasiya dərc etməmişik. Sadəcə, həmkarlarımız yanlışlığa yol veriblər. Vasif Talıbovla bağlı məlumat jurnalist təxəyyülünün məhsuludur. Sadəcə, orada bir məqam var ki, o da jurnalistin metodu ilə bağlıdır. Orda da göstərilir ki, "məlumatlara görə, Naxçıvan Ali Məclisinin sədri Vasif Talıbov Azərbaycanın vitse-prezidenti elan ediləcək. Çünki Ali Məclisin sədri vəzifəsi Azərbaycanın vitse-prezidenti postuna bərabərləşdirilib". "Məlumata görə" sözünün qeyd edilməsi jurnalistin öz təxəyyülünün məhsuludur. Bunun da bizə aidiyyəti yoxdur. Bizim qəzetdə dərc olunan material 5-ci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 5-ci sessiyasının çağırılması haqqında qərarıdır. Qərarda da gündəlikdə duran məsələlər, 2017-ci ilin sosial-iqtisadi inkişafı sahəsində qarşıda duran vəzifələr, Naxçıvan Muxtar Respublikasının 2016-cı il üzrə dövlət büdcəsinin icrasının təsdiq edilməsi, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına dəyişikliklər edilməsi ilə bağlıdır".

Qeyd edək ki, fevralın 23-də günün ikinci yarısında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin beşinci sessiyası keçirilib. APA xəbər verir ki, Ali Məclis Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqda qanun layihəsini qəbul edib. Konstitusiyanın Naxçıvan Muxtar Respublikasında vətəndaşların seçki hüququnu tənzimləyən 8-ci maddəsi yeni redaksiyada verilərək adından və mətnindən məhdudlaşdırıcı ifadələr çıxarılıb, maddənin strukturu konstitusiya normalarına uyğunlaşdırılıb. Konstitusiyaya təklif olunan dəyişikliklərdən biri də gənclərin dövlət quruculuğunun bütün təbəqələrində iştirakına şəraitin yaradılması ilə bağlıdır. Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında qanun oxunub və səsə qoyularaq qəbul edilib. Göründüyü kimi, V.Talıbova fövqəladə vitse-prezident səlahiyyəti verilməsi haqda heç bir düzəliş yoxdur...

Siyasi ekspertlər hesab edir ki, Vasif Talıbovla bağlı qeyd olunanlar və bir sutka sonra təkzib verilməsi ortaya suallar çıxarır. Konstitusiyaya görə, 1-ci vitse-prezident və vitse-prezidentlər Azərbaycan Respublikasının prezidentinin sərəncamı ilə təyin edilir. Bu məsələ konstitusiyada açıq-aydın yazılıb. Sual olunur: o zaman Vasif Talıbovun vitse-prezidentliyinin elan ediləcəyi barədə dövriyyəyə buraxılan informasiya nəyə və kimə xidmət edirdi və nə üçün idi? Burada məqsəd Vasif Talıbova zərbə vurmaq idi, yoxsa...

Onu da qeyd edək ki, Naxçıvan MR Ali Məclisinin sədri, Azərbaycan Konstitusiyasına görə, Azərbaycan Milli Məclisinin sədr müavinidir. Lakin nə Azərbaycan Konstitusiyasında nə də Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında Naxçıvan MR Ali Məclisinin sədri vəzifəsinin həm də Azərbaycanın vitse-prezidenti postuna bərabərləşdirildiyi yazılmayıb.

Naxçıvan MR Konstitusiyasına əlavə və dəyişikliklərə gəlincə, bunun üçün prosedurlar var.

Virtualaz.org konstitusiya hüququ üzrə mütəxəssislərə istinadən bildirir ki, Naxçıvan Muxtar Respublikası Konstitusiyasına dəyişikliklər və əlavələr Naxçıvan Muxtar Respublikasının Ali Məclisində azı 35 səs çoxluğu ilə qəbul edildikdən sonra təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edilir. Bu zaman nəzərə almaq lazımdır ki, Naxçıvan Konstitusiyasına dəyişikliklər və əlavələr haqqında təklif muxtar respublikanın Ali Məclisində 2 dəfə səsə qoyulur. İkinci səsvermə birinci səsvermədən 3 ay sonra keçirilir. Üçüncü mərhələdə Naxçıvan Konstitusiyasına dəyişikliklər və əlavələr haqqında Konstitusiya qanunları həm birinci, həm də ikinci səsvermədən sonra müvafiq tutulmuş qaydada, Naxçıvan Ali Məclisinin sədrinə imzalamaq üçün təqdim olunur. Bu zaman nəzərə alınır ki, əlavə və dəyişikliklər Naxçıvan Konstitusiyasının əsas mətninə zidd olmamalıdır.

❑ **Etibar SEYİDAĞA**

# Hakimiyyət müxalifəti "hərəkətə keçirir"

## İqtidara ciddi dirəniş göstərməyən, günü-gündən zəifləyən, hətta etiraz aksiyaları belə keçirməyən müxalifət niyə hədəfə gəlib?

**Azərbaycan müxalifətinin zəif olduğu dönəmlərdə ölkə iqtidarının bu düşərgəyə qarşı son zamanlar artan basqıları müşahidə olunmaqdadır. Demək olar ki, hər gün müxalif fəalların həbsinin şahidi oluruq. Onların əksəriyyəti inzibati cəzalara məruz qalırlar. Barələrində cinayət işi açılanlar da var.**



Amma indi daha çox maraq doğuran bir sual var: hakimiyyətə gəlmək şansları olmayan, günü-gündən zəifləyən, öz daxilindən parçalanan, hətta etiraz aksiyaları belə keçirməyən müxalifət niyə iqtidarın hədəfinə gəlib? Sanki iqtidar müxalifəti hərəkətə keçirmək, onların varlığını bu şəkildə ictimaiyyətə təbliğ etməkdə maraqlı görünür.

**"Turan" informasiya agentliyinin rəhbəri Mehman Əliyev hesab edir ki, hakimiyyət bu metodla qabaqlayıcı addım atır:** "Bu addımlar ona görə atılır ki, müxalifət hər hansı bir etiraz aksiyaları keçirməsin. Bu daha çox cəmiyyətin fəallığını azaltmaqla bağlıdır. Məqsədlərini istədikləri formada həyata keçirmək istəyirlər. Vəziyyət getdikcə çətinləşir. İstər-istəməz fəallıq artır. Düşünürəm ki, hakimiyyətin hücumlarının artmasının əsas səbəbləri budur. Fevral-mart ayları müxalifətdən hansısa etirazlar ola bilər. Sonradan, açığı, inanmıram ki, belə təpkilər olacaq. İqtidar müxalifətə qarşı vaxtaşırı belə "yoxlama tədbirləri"ni həyata keçirir. Hökumət apardığı siyasətlə ölkəni böhran vəziyyətinə gətirib. İstəsə də, istəməsə də, müxalifətin nüfuzu qalxır. Əgər islahatlar həyata keçirilməsə, böhran daha da artacaq, müxalifətin də çəkisi artacaq".

**REAL-ın İdarə Heyətinin üzvü Azər Qasımlı müxalifətə qarşı hücumların son günlər artması ilə razılaşır:** "Etiraf etmək lazımdır ki, hakimiyyətin rəqiblərinin bugünkü resursları bir neçə il əvvəldən ciddi şəkildə fərqlənir. Bu resurslar daha zəifdir. Bu, məsələnin birinci tərəfidir. Belə götürəndə Azərbaycanda vəziyyət dəyişib. Ölkədə iqtisadi böhran daha da dərinləşir, manat dəyərdən düşür, qiymətlər artır, bank sektorunda ciddi problemlər yaşanır. Bu da insanların sosial həyatına ciddi şəkildə təsir edir. Bu proses getdikcə dərinləşir. İqtisadçıların verdikləri proqnozlar ondan ibarətdir ki, qarşıdakı iki ildə Azərbaycanda iqtisadi krizis daha da artacaq. Bu da insanların sosial həyatındakı problemləri pik həddə çatdıracaq. İnsanlar siyasətə gəlməyə başlayacaqlar, aktivlikləri artacaq. Ümumən siyasi həyat daha aktiv olacaq. Nəticədə iqtidara rəqib olan qüvvələr daha da güclənəcək, cəmiyyətdən böyük dəstək alacaqlar. Hakimiyyətdə olan şəxslər də bunu görməmiş deyillər. Onların məlumatları daha çoxdur, nəinki bizim. Çünki daha məlumatlıdırlar, inzibati resurslar da onların əllərindədir. Hakimiyyət zəifləyərsə, bu da iqtidarın rəqiblərinin güclərinin artması deməkdir. Bunun qarşısını almaq üçün bu gün həbslər həyata keçirilir. REAL-ın Sumqayıt Məclisinin üzvü Rahim Şalıyev həbs edilib və ona işgəncələr verilib. Başqa təşkilatlar haqqında bir söz deməsəm də, REAL-a qarşı hücumların başqa bir səbəbinin də olduğunu deyə bilərəm. REAL partiyalaşma mərhələsində olan bir təşkilatdır. Çox yaxın zamanlarda qurultayımızı keçirib, REAL-ı partiya kimi elan etməyi planlaşdırırıq. Hakimiyyət də bunu bilir və bunun olmasını istəmir. Belə bir həssas dönəmdə siyasi arenaya belə bir qüvvənin qədəm qoymasını hakimiyyət ikiqat istəmir. Bu baxımdan, hesab edirəm ki, REAL-a qarşı basqıların səbəblərindən biri də budur".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 42 (6656) 24 fevral 2014

# "Bu, "xalq diplomatiyası"nın bir hissəsidir"

"Ermənistan-Azərbaycan Sülh Platforması"nın həmtəsisçisi "Yeni Müsavat"a danışdı; **Rövşən Rzayev:** "Azərbaycan torpaqlarının hər bir qarışı uğrunda mübarizə aparacağıq"

**7 dekabrda Bakıda təsis olunan "Ermənistan-Azərbaycan Sülh Platforması"ına yeni üzvlərin qoşulması prosesi davam edir. Bir sıra müşahidəçilər hesab edir ki, vətəndaş cəmiyyəti təmsilçilərinin başlatdığı və Azərbaycan hakimiyyətinin də dəstəklədiyi bu proses əslində rəsmi Bakının son illərdə Qarabağ problemi ilə bağlı nail olduğu ən uğurlu hadisədir.**

*Bəzi ekspertlərə görə, xüsusilə də erməni fəalların Azərbaycanın ərazi bütövlüyünü tanıyaraq, Xocalı soyqırımına görə Ermənistan hakimiyyətini ittiham edərək və üzr istəyərək Sülh Platformasına qoşulması Sərkisyan hakimiyyəti üçün gözlənilməz olub. Ancaq "Ermənistan-Azərbaycan Sülh Platforması" ilə bağlı gedən prosesə Azərbaycanda da münasibət birmənalı deyil. Bütün bunlarla əlaqədar Sülh Platformasını imzalayan şəxslərdən biri, Milli Məclisin deputatı, Dağlıq Qarabağ İcma Şurasının idarə heyətinin üzvü Rövşən Rzayevə müraciət etdik.*

***- Rövşən bəy, Sülh Platformasının məram-məqsədləri nədən ibarətdir? Bu qurumun hədəfləri sırasına nələr daxildir? Bəlkə bütün bunları bir daha açasınız ki, cəmiyyətdəki suallar da aradan qalxsın.***

- Bu gün Azərbaycan vətəndaşları əmin olsunlar ki, bütün fəaliyyətimiz Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsinə yönəlib. Möhtərəm cənab prezident buna nail olmaq üçün Minsk Qrupu çərçivəsində bütün imkanlardan istifadə edir. Mən əminəm ki, yaxın zamanlarda Azərbaycanın bu əsas probleminin həllində böyük imkanlara malik olacağıq. Biz bunu bacaracağıq. Bir tərəfdən sülh prosesi davam edir, digər tərəfdən isə möhtərəm cənab prezidentin Ali Baş Komandan kimi Azərbaycan Silahlı Qüvvələrinə çox böyük diqqət və qayğısı mövcuddur. «Ermənistan-Azərbaycan Sülh Platforması» ondan ötrü yaradılıb ki, Ermənistan hakimiyyətinin işğalçı siyasətini davam etdirməsinə baxmayaraq, biz və Ermənistanın müəyyən qrupları bu problemin sülh yolu ilə həllinin alternativsiz olduğunu görürük və sülhü dəstəkləmək üçün öz töhfəmizi veririk. Bu proses davam etdirilir. Sülh Platformasına qoşulan hər bir şəxs hazırlanmış forma var, onu imzalayır. O formada da qeyd olunur ki, Azərbaycanın Dağıl Qarabağ bölgəsini Azərbaycan Respublikasının ərazisi kimi tanıyan və Dağlıq Qarabağ probleminin sülh yolu ilə həllini istəyən adamların sayının artırılmasının tərəfdarıyıq. Bu istiqamətdə də müəyyən işlər aparılır. Düşünürük ki, bu, düzgün istiqamətdir və bu iş üzərində də işlər aparılır. Güman edirəm ki, yaxın zamanlarda bizim sıralarımız həddindən artıq artacaq və biz Ermənistanın işğalçı rəhbəri, Xocalı soyqırımının həm təşkilatçısı, həm də iştirakçısı olan Serj Sərkisyanın bu cür qeyri-konstruktiv mövqe tutduğunu sübuta yetirəcəyik.

***- Azərbaycan rəhbərliyinin mövqeyi bəllidir, bütün baş verənlərə, tökülən qanlara rəğmən qisasçılıq hissindən uzaq olub sülh yolu ilə ərazi işğalına son verilməsi, normal qonşuluq şəraitində yaşayışı mümkün sayır. Ermənistan hakimiyyəti isə tamamilə fərqli mövqedədir. Üstəlik, İrəvandan Sülh Platformasına dəstək yoxdur, hətta bu prosesə qoşulanlar təqib olunur. Amma sülh imzalanacaqsa, bu, hakimiyyətlər arasında imzalanacaq. Belə olan təqdirdə qoşulduğunuz işin perspektivi barədə nə deyə bilərsiniz?***

- Yanaşmanız tamamilə doğrudur. Ermənistan işğalçı siyasətinə, Dağlıq Qarabağ ərazisində azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparılmasına müəyyən don geyindirməkdən ötrü ən müxtəlif iddialar səsləndirib. Xatırlayırsınızsa, Ermənistanın keçmiş prezidenti Köçəryan 2008-ci ildə Moskvadakı çıxışında demişdi ki, azərbaycanlılarla ermənilər arasında etnik uyğunsuzluq var və birgəyaşayış qeyri-mümkündür. Biz isə onlara göstərmək istəyirik ki, ermənilərlə azərbaycanlıların, Dağlıq Qarabağın erməni və azərbaycanlı icmasının birgəyaşayışı mümkündür. Biz istəyirik ki, əvvəlki illərdə olduğu kimi, bundan sonra da bir yerdə, dinc şəkildə yaşayaq. Bunlar Ermənistanın dünya birliyinə yönəlik yalançı siyasətinin qarşısını almaqdan ötrü atılan addımlardır. Yəni bu, işğalçı ölkə rəhbərliyinin dediklərinin əksinə aparılan bir fəaliyyətdir. Məncə, burada qeyri-adi bir şey yoxdur, hər şey açıq və göz qabağındadır.

***- Azərbaycanın bu təşəbbüsü beynəlxalq aləmdə necə qarşılanır? Reaksiyalar gəlirmi?***

- Bir çox ölkələrin siyasiləri, bir sıra jurnalistlər qısa müddət ərzində bizi dəstəkləyiblər. Bu dəstəyi bir az da artıq qazanmaqdan ötrü bu gün də Platformaya qoşulanların hər biri fəaliyyətdədir. Təbii ki, biz bunun genişləndirilməsinin tərəfdarıyıq. Bizim sayımız artdıqca, səsimiz dünyanın aparıcı ölkələrinin rəhbərliyinə daha tez çata bilər.

***- Belə qənaətə gəlmək olarmı ki, işğalçı ölkənin vətəndaş cəmiyyətinin təmsilçiləri təqiblərdən çəkinməsəydi, prosesə daha çox dəstək verənlər olardı?***

- Tamamilə doğrudur. Ermənistandan qoşulanların sayı kifayət qədər, biz gözlədiyimizdən də artıqdır. Hətta Dağlıq Qarabağdan 19-20 yaşında bir qız *(Xankəndindən olan gənc yazıçı Lusine Nersisyan-E.P.)* platformaya qoşuldu və dərhal ona qarşı müəyyən təzyiqlər başladı, əleyhinə mətbuatda kampaniya başladı. Bütün bu təzyiqlərə baxmayaraq, platformaya üzv olan ermənilərin sayı artır. Biz də maraqlıyıq ki, biz bu prosesi nə qədər tez yekunlaşdırsaq, bir o qədər də tez nəzərdə tutduğumuz hədəflərə çatarıq.

***- Bakının başlatdığı alternativ prosesi sükutla müşahidə edən Ermənistan hakimiyyəti müharibənin başlayacağını vaxtaşırı bəyan edir və narahatlığını davamlı şəkildə dilə gətirir. Sizcə, Sərkisyan hakimiyyəti nədən narahatdır?***

- Müşahidələriniz doğrudur. Ermənistanın rəhbərliyi Dağlıq Qarabağdan əsgərliyə çağırılan gəncləri öz hakimiyyətini saxlamaq üçün Ermənistana aparır, İrəvanda qulluq etdirir, ancaq heç bir günahı olmayan Ermənistan vətəndaşlarını isə Dağlıq Qarabağa göndərir, onlar da orda ordumuz tərəfindən məhv edilir. Ancaq cənab prezidentimizin dediyi kimi, erməni əsgəri ölmək istəmirsə, bizim torpaqda nə işi var? Aprel hadisələri də göstərdi ki, Azərbaycan ərazi bütövlüyünü təmin etməkdə israrlıdır, ölkəmizin buna hərbi qüdrəti çatır. Eyni zamanda Azərbaycan gəncliyi hər zaman döyüşə hazırdır. Bundan əlavə, cənab prezidentin Cocuq Mərcanlının bərpası haqda verdiyi sərəncamın ardınca bütün kənd sakinlərinin öz doğma yurduna köçmək arzusunu bildirməsi təbii ki, Ermənistan ictimaiyyətində böyük narahatlığa səbəb olub. Ermənistan hakimiyyəti başa düşür ki, ölkənin vətəndaş cəmiyyəti bu platformaya qoşulduqca, Ermənistanın apardığı siyasi oyunların sonu çatacaq. Bizim nəzərdə tutduğumuz işlər bundan ibarətdir. İşğalçı siyasəti aparan Sərkisyan rejimi qarşıdakı seçkilərdə qələbə çalmaqdan ötrü Qarabağ kartını bir az da şişirtməyə çalışır. Biz də bunun qarşısını almaq üçün nə imkanımız varsa, etməliyik. Mən çox istərdim Azərbaycan vətəndaşları, gənclərimiz bilsin ki, Azərbaycan heç bir zaman torpaq itkisi ilə barışmayacaq! Möhtərəm prezidentimizin dediyi kimi, Azərbaycan ərazisində heç zaman ikinci erməni dövləti yaranmayacaq, Azərbaycan öz ərazi bütövlüyünü təmin edəcək və hər bir azərbaycanlı, istər Şuşada, istər digər işğaldakı rayonlarımızda yaşamış hər bir vətəndaşımız öz torpağına köçəcək, buna mənim qəti şübhəm yoxdur.

***- Platformaya üzvlük nə vaxta qədər davam edəcək və növbəti addım nədən ibarət olacaq?***

- Biz gözləyirik ki, sayımız artsın və səsimizi Minsk Qrupuna daxil olan dövlətlərin rəhbərləri eşitsin, bizim mövqeyimizə hörmətlə yanaşılsın və problemin həlli prosesində mövqeyimiz nəzərə alınsın.

***- Sizin başlatdığınız prosesi xalq diplomatiyasının bir hissəsi saymaq olarmı?***

- Bu, xalq diplomatiyasının bir hissəsidir və sülhə gedən yollardan biridir.

***- Bundan əvvəl də bir proses başlamışdı və sizin də iştirak etdiyiniz heyət Dağlıq Qarabağa, Ermənistana səfər etmişdi. Ancaq Ermənistan hakimiyyətinin qeyri-konstruktivliyi bu sülh prosesini tormozladı. Analoji vəziyyətin yaranacağından narahat deyilsiniz ki?***

- Bəli, 2009-cu ildə mən Şuşada və Ermənistanda olmuşam. O proses bu gün də davam edir. Biz, Dağlıq Qarabağın azərbaycanlı icması Dağlıq Qarabağın erməni icmasını dialoqa dəvət edirik. Eyni zamanda daha önəmlisi «Ermənistan-Azərbaycan Sülh Platforması»nın yaranmasıdır. O istiqamətdə də işlər aparılır.

***- Xalq artisti Zeynəb Xanlarovanın Sülh Platformasına qoşulmasına münasibət birmənalı olmadı. Böyük sənətkarın bu təşəbbüsə qoşulması, sizcə, proses üçün nələr vəd edir?***

- Azərbaycanda xüsusi hörmətə malik olan Zeynəb Xanlarovanın bu təşəbbüsə qoşulması ciddi hadisədir. Sülh Platformasının üzvləri Zeynəb xanıma yaxınlaşıb ondan xahiş etdilər ki, o da öz şəxsi nüfuzundan istifadə edib bizə bu istiqamətdə dəstək olsun. Sağ olsun Zeynəb xanım da bizdən öz köməyini əsirgəmədi və bizi dəstəklədi. Zeynəb xanım Azərbaycanın ərazi bütövlüyünün sülh yolu ilə təmin olunmasında maraqlıdır. Dünya miqyasında tanınmış bir sənətkarın bu prosesə qatılmasının özü mühüm hadisədir. Hesab edirik ki, bu addım prosesə öz töhfəsini verəcək. Beləliklə, biz həm Azərbaycandan, həm Ermənistandan, həm də Avropa ölkələrinin və dünyanın digər ölkələrinin siyasi şəxslərini bu platformaya üzv etməklə nəzərdə tutduğumuz məqsədə nail olmağa çalışırıq. Bütün atılan addımlar Azərbaycanın ərazi bütövlüyünün sülh yolu ilə təmin olunmasına imkanımız daxilində dəstək verməyə yönəlib.

***- Yəqin ki, siz ermənilərlə sülh prosesini apararkən Qarabağda şəhid olan qəhrəmanlarımızın yaxınlarının, Qarabağ qazilərinin, veteranların, yurdu yağmalanan insanlarımızın da mövqeyini nəzərə alırsınız. Elə bu günlərdə yenə şəhid verdik.***

- Allah bütün şəhidlərimizə rəhmət eləsin! Çox narahatam ki, bu cür hallar baş verir. Mən çox istərdim ki, bu cür qanlı hadisələr bizdən uzaq olsun. Mən şəhidlərimizin ailələrinə dərin hüznlə başsağlığı verirəm. Təbii ki, biz bütün bu amilləri, onların mövqeyini nəzərə alırıq. Ancaq əmin edirəm ki, bizim başlatdığımız proses torpaqlarımızın sülh yolu ilə azad olunması istiqamətində mübarizəmizdən başqa bir şey deyil. Bacardığımız qədər Azərbaycanın, bizim hər birimizin vətənimiz uğrunda mübarizəni davam etdirəcəyik. Tam əminəm ki, yaxın gələcəkdə ərazi bütövlüyümüzü möhtərəm cənab prezident İlham Əliyevin rəhbərliyi altına təmin edə biləcəyik. Bu məsələ ilə bağlı kiminsə sualları varsa, bir neçə gündən sonra mən ezamiyyətdən Bakıya qayıdacağam, mən hər kəslə görüşməyə hazıram.

***- Rövşən bəy, sizdəmi o fikirdəsiniz ki, əgər sülh cəhdləri istənilən nəticəni verməsə, hərbi yolla torpaqların azad olunması lazım gələcək?***

- Əlbəttə. İstəyirəm bu fikri qeyd edəsiniz: Azərbaycanda mənim kimi düşünən heç bir hərbçi yoxdur. Azərbaycan əsgəri öz işi ilə məşğuldur və əmr gözləyir. Biz də onların yanındayıq. Amma bizim apardığımız işdə məqsəd itki vermədən sülhə nail olmaqdır. Biz deyirik ki, Ermənistanın dünya ictimaiyyətinə nümayiş etdirdiyi yalançı siyasətinin qarşısını almaqdan ötrü bu addımı atırıq. Dünya ictimaiyyəti bilsin ki, ermənilərlə azərbaycanlılar arasında etnik uyğunsuzluq yoxdur və biz heç bir zaman öz torpağımızı heç bir xalqa, o cümlədən bizə qarşı düşmən mövqeyində duran ermənilərə verən deyilik! Biz nə qədər varıq, o qədər də Azərbaycan torpaqlarının hər bir qarışı uğrunda mübarizə aparacağıq! Azərbaycanın başlatdığı bu proses Ermənistanı fakt qarşısında qoyub. Üstəlik, regionda iri dövlətlər mövcuddur və hər bir dövlətin özünə uyğun siyasəti var.

Azərbaycan aprel ayında sübut etdi ki, silah gücü ilə qısa müddətdə ərazi bütövlüyünü təmin edə bilər. Amma yenə də Azərbaycan sülhün tərəfdarıdır. Sülh danışıqlarının davam etdirilməsində qərarlı olan cənab prezident bir daha göstərir ki, Azərbaycan dövləti silah gücünə öz torpaqlarını azad edə bilər, Azərbaycan ərazisində beynəlxalq hüquq prinsiplərinə söykənərək antiterror əməliyyatları keçirməyə tam hüququ və imkanı var, eyni zamanda biz sülh yolunu da zəruri sayırıq və bu istiqamətdə addımlar atırıq.

***- Həmsədrlərin növbəti səfəri mart ayına planlaşdırılıb. Sülh Platforması üzvləri həmsədrlərlə görüşə bilərmi?***

- Ola bilər. Mən də istərdim ki, həm Sülh Platforması, həm də Dağlıq Qarabağın Azərbaycanlı İcması olaraq həmsədrlərlə görüşək, mövqeyimizi bir daha onlara çatdıraq.

❑ **Elşad PAŞASOY**



**"Biz onlara göstərmək istəyirik ki, Dağlıq Qarabağın erməni və azərbaycanlı icmasının birgəyaşayışı mümkündür"**



# Dejavu

Zamin HACI
zaminhaci@gmail.com

## Yaxud təkrar repressiyanın atasıdır?

**İslam Həmrəyliyi Oyunlarına hazırlıq bütün şiddətiylə davam edir. Masallıda bölgənin nüfuzlu din xadimlərindən Sərdar Hacıhəsənlini zindana salıblar. İttiham maddələri isə çox gülməlidir: hökumət onu xaricdə təhsil alaraq burda dini moizələr oxumaqda suçlayır.**

Açığı, mən hələ bu maddə qanuna salınanda bunun necə karikatur olmasını izah etmişdim, yenə yazım. Məsələ ondadır ki, islam dini bizə qıraqdan, Ərəbistandan gəlibdir və bunun elmi-dini mərkəzlərinin çoxu xaricdədir. İranda, Misirdə, başqa ərəb ölkələrində. İndi sən bunu xaricdə öyrənib gəlib burda camaata öyrətməyi nə cür qadağan edirsən? Elə bil Parisdə oxuyub gələn adama inqilab elmini tədris etməyi qadağan buyurursan. Yaxud Moskvada oxumuş adama Dostoyevskinin tədrisinə icazə vermirsən. Xoşun gəlmir, vəziyyətə nəzarət etmək çətindirsə, kökdən qadağa elə, camaat da işini bilsin. Yoxsa bunlar hamısı artistizmdir. Oyunbazlıqdır.

İşin başqa karikaturası odur ki, həmin bu din xadimi Hacıhəsənli İranda oxuyub, ancaq ora oxumağa hələ SSRİ vaxtında gedibdir. Belə çıxır, qanun geriyə hökmlüdür. Eyni zamanda elə o SSRİ vaxtı Orta Asiyada oxumuş Allahşükür bəyin dini idarəyə rəhbər qalması absurd alınır.

Bu mənada adını çəkdiyimiz sovet hökuməti bəlkə daha səmimi idi - özü din xadimini oxudurdu, poqonunu verirdi, konspektini yazırdı, məsələ köklü həll olunurdu. Yoxsa indiki siyasətin bir adı vardır: "Göstərirəm, amma vermirəm". Qal yana-yana. Ya da "bax, bax, həsrət qalacaqsan".

Sovet dedim yadıma düşdü, son vaxtlar geriyə qayıdışda böyük addımlar atırıq. Yəqin yaşlı adamlar yaxşı xatırlayır, o zamanlar insanlar istənilən iş, təhsil, partiyaya girmək və sairə üçün müraciət edəndə tərcümeyi-hal yazmalıydılar, orda isə bir məsələ mütləq dəqiq göstərilməliydi: "Xaricdə hər hansı qohumunuz varmı, yoxmu?" SSRİ özünə dəmirdən qılaf qurub içində gizlənmiş axmaq və qorxaq bir sistem idi, o üzdən vətəndaşlarının xaricdəki qohumları vasitəsilə casus olacağından qorxurdu.

İndi azərbaycanlılar eyni halı yaşayırlar. Kimsə xaricdə hökuməti tənqid edirsə, onun burdakı qohumlarını tutub zindana salırlar, işdən çıxardırlar, nəticədə adamlar qohumlarından imtina ərizəsi yazır. Bir növ nostalji yaşayırıq, uşaqlığımıza dönmüşük, buna görə hökumətə dərindən minnətdarıq. Siyavuş müəllimi 12 apreldə "Azərsat" peykinə mindirib kosmosa uçurtsaq komplekt lap tamamlanardı, deyərdik bu da milli Qaqarindir.

Yaxud bəzi adamları tutmurlar, idarəyə çağırıb profilaktik söhbət aparırlar, deyirlər özünü yığışdır, gələn dəfə burdan çıxmaya bilərsən. Şəxsi təcrübəmizdən deyə bilərik ki, bu üsulun da xeyli müsbət tərəfləri və nəticələri vardır. Bəs bu metod necə yaranıb? Yazım, bilin: hüquq-mühafizə orqanlarında profilaktik tədbirləri ilk dəfə Xruşşov tətbiq eləyibdir. Stalinin ölümündən sonra, 1950-ci illərin ikinci yarısında. Stalin xoşu gəlməyən adamları birbaşa ya Sibirə, ya qəbirə yollayırdı, Xruşşov isə guya demokrat idi, "yumşalma"-zad prosesi yaratmışdı, o üzdən repressiyanın kəmiyyət və keyfiyyətini xeyli dərəcədə dəyişmişdi. Təbii ki, Xruşşovun bu yumşaqvari repressiyasının effektinə Stalinin başkəsən üsulları kömək olmuşdu. Adamlar gözü çıxan qardaşlarını yada salıb profilaktik söhbətlərə çox məmnuniyyətlə razılaşırdılar.

Profilaktik repressiya ilə yanaşı real repressiya - həbslər də davam edirdi, ancaq əvvəlki tempdən dəfələrlə az miqyasda. Təcrübə göstərmişdi ki, profilaktika birbaşa repressiyadan daha səmərəli olur. O üzdən, profilaktikanı Xruşşovu aşırdandan sonra Brejnev yoldaş da qüvvədə saxladı.

Dünən 23 fevral - sovet ordusunun yaranması münasibətilə bəzi adamların bir-birini təbrik eləməsini də gördüm, fikirləşdim ki, əslində bizdə sovet hökuməti heç dağılmayıbdır. Həmin kadrlar paltarlarını, maşınlarını, bayraqlarını dəyişib yenə bizi fırladırlar.

Bəs camaat niyə "Allah Qorbaçovun evini yıxsın, gül kimi Şura hökumətini dağıtdı" deyir? Anlamaq olmur.



# Maydanın 3 ili: Ukrayna inqilabdan nə qazandı, nə itirdi?

## Elxan Şahinoğlu: "Ukraynada islahatlar ləng gedir, yeni iş yerləri açılmır, ən əsası da Krım və Donbasın bir hissəsi Rusiyanın nəzarəti altındadır"

**Ukraynada ikinci maydan hadisələrindən 3 il keçdi. 2014-cü il fevralın 22-də gecə saatlarında Kiyevin mərkəzi meydanında toplanan insanlar hökumət binasına daxil olaraq rəsmən Yanukoviç hökumətinə son qoyulduğunu bəyan etdi. Bununla da Ukraynada ikinci inqilab və ya "Avromaydan" başa çatdı. Amma hər şey bundan sonra başlayacaqdı, Rusiya ilə əlaqələrin qırılmasının cəzası olaraq Donetsk və Luqansk rayonlarında başlayan separatizm tezliklə müharibəyə, separatizm bölgəsinin yaranmasına və Krım vilayətinin Rusiyanın nəzarətinə keçməsinə səbəb olacaqdı.**

Hər şey ondan başladı ki, 2013-cü noyabrın 21-də Ukraynanın baş naziri Nikolay Azarov televiziyadan elan etdi ki, Avropa İttifaqının Vilnüsdə keçiriləcək sammitində Ukrayna heç bir sənədə imza atmayacaq. Aydın oldu ki, Yanukoviç AB ilə yaxın tərəfdaşlığa getməyəcək. Bu açıqlamadan qısa müddət sonra Ukraynada əvvəl sosial şəbəkələrdə etirazlar, ardınca isə aksiyalar başladı.

Noyabrın 30-da xüsusi təyinatlı "Berkut" birləşmələri Maydanda toplaşan insanlara hücum edərək etirazçılara güc tətbiq edərək çadırları dağıtdı. Yanvarın 22-də Kiyevin Qruşevski küçəsində "Berkut"la aksiyaçılar arasında baş verən ikinci toqquşmada 3 nəfərin ölməsi gərginliyi daha da artırdı. Ən ciddi toqquşmalar isə 2014-cü il fevralın 18-də başladı. Üç gün davam edən toqquşmalar zamanı 75 nəfər həlak oldu. Artıq proseslər geridönməz xarakter aldı və 21 fevralda maydan liderləri ilə prezident Yanukoviç arasında anlaşma əldə edildikdən bir sutka sonra Maydan fəalları hökumət binasını ələ keçirdi, Yanukoviç isə Rusiyaya qaçmalı oldu. Amma bu son deyildi. Qarşıda Krımın Rusiya tərəfindən ilhaqı, Donetsk və Luqanskda separatizm fəaliyyətləri vardı.

**Maydan olaylarını canlı şəkildə müşahidə etmiş, Ukraynanın separatçı bölgələrini gəzmiş və daha sonra bu hadisələrlə bağlı kitab yazan siyasi şərhçi Elxan Şahinoğlu Maydan xatirələrini bizimlə bölüşdü. Elxan bəy Ukrayna olaylarını 80-ci illərin sonu, 90-cı illərdə Azərbaycanda baş verənlərlə paralellik gördüyünü deyir:** "Kiyevdə Maydan hadisələrini yerində izləyən birisi kimi görürdüm ki, ukraynalılar meydana həvəslə gəlir və ciddi dəyişikliklərə ümid edirlər. Ancaq mən onlar qədər optimist deyildim. Çünki köhnənin ortadan qaldırılması hələ yeninin mükəmməl olduğu anlamına gəlmirdi. Kiyevdə meydanı dolduran insanları gördükdə Bakıda Azadlıq meydanındakı möhtəşəm mitinqlər yadıma düşürdü. Ukraynada nə ordu var idi, nə də kəşfiyyat xidməti. Çünki Rusiya məxfi orqanları Ukraynadakı güc strukturlarında öz adamlarını yerləşdirmişdi və prezident Viktor Yanukoviç hakimiyyətinin çökməsi ilə həmin şəxslər həm özləri qaçdılar, həm də başçılıq etdikləri nazirlikləri dağıtdılar. Üstəgəl, Rusiya qoşunları Krımda yerləşmiş və Donbasda separatizm baş qaldırmışdı".



**Siyasi şərhçi deyir ki, Ukraynada müxalifət qələbə qazansa da, onları gözləyən vəziyyətə hazır deyildi. Bu səbəbdən də tezliklə ölkədə separatizm baş qaldırdı və bir neçə vilayət itirildi, qanlı müharibə başladı:** "Kiyevdə ukraynalı siyasətçi və ekspertlərlə görüşdükdə, onlardan bu ağır vəziyyətdən necə çıxacaqlarını soruşurdum. Onlar nə edəcəklərini hələ bilmirdilər, Maydanın eyforiyasından ayılmamışdılar. Yaxşı yadımdadır, ukraynalı millətçi deputatla görüşdə eyni sualı ona da verdim. O da cibindən tapançanı çıxararaq mənə "bax, lazım olsa ətrafımda dostlarımı yığıb Donbasa gedəcəm". Onunla ayrılıb şəhərin mərkəzinə tərəf gedirdim ki, güclü səs-küy eşitdim. Sən demə, həmin gün Kiyev "Dinamo"su ilə "Şaxtyor" futbol komandaları arasında çempionluq uğrunda matç var imiş, gənclər ora tələsirmiş. Bu gördüyümlə deputatın sözləri arasında təzad var idi. Mən anlayırdım ki, Ukrayna gecikir, separatizmə və Rusiyanın müdaxiləsinə son qoymaq üçün nəsə etmək lazımdır. Ancaq yeni qüvvələri də qınamaq olmazdı, yeni hökumət formalaşmayıb, kimin hansı struktura rəhbər təyin olunacağı bilinmirdi. Üstəgəl də müvəqqəti hökumət təcili olaraq dağılan ordunu və güc strukturlarını formalaşdırmalıydı. Buna isə vaxt lazım idi. Kreml isə bu boşluqdan istifadə edərək öncə Krımı işğal etdi".

**Krımın Rusiya tərəfindən işğalının inqilabdan sonra Ukraynaya ilk ağır zərbə olduğunu deyən ekspertə görə, həmin vaxt atılan addımlar yanlış olub. Belə ki, Ukrayna hökumətinin də istəyi ilə Krım tatarları separatizmə müqavimət göstərməyib və nəticədə yarımada Rusiyaya ilhaq olunub:** "Üstündən 3 il keçdikdən sonra özümə sual verirəm: əgər tatarlar dağılışmasaydı, Rusiya işğalına müqavimət göstərsəydilər, hadisələr necə inkişaf edərdi? Bu mövzu ətrafında Kiyevdə Krım tatarlarının lideri Mustafa Cəmiloğlu ilə geniş diskussiyam olub. Mustafa bəy qan töküləcəyini bildirdi, yeni Kiyev hakimiyyəti isə bunu istəmirdi. Ona görə də tatarların liderlərinə deyiblər ki, silahlanmasınlar və toqquşmaya rəvac verməsinlər, çünki Kremlə bundan öz məqsədləri üçün istifadə edə bilər. Fikrimcə, o zaman Kiyev yanlış qərar verib. Bu fikrimi ukraynalı siyasətçilərə və ekspertlərə də bildirmişəm. Krımda güclü müqavimət olsaydı, Rusiya prezidenti Vladimir Putin bir qədər ehtiyatlı qərarlar verərdi. O görəndə ki, Krımı asanlıqla ələ keçirir və müqavimət yoxdur, istədiyi hədəfə asanlıqla çatdı".

**E.Şahinoğlu deyir ki, analoji vəziyyət Donbas və Donetskdə də olub:** "Putin Ukraynanı iki hissəyə bölmək istəyirdi, hətta belə bir deyim də fikirləşmişdilər: "Novorossiya". Bunun açması belədir ki, "Kiyevdən qərbə qədər sizin, şərq isə tamamən Rusiyanın". Başqa sözlə, Putinin planına görə, Krım, Luqansk və Donetsklə yanaşı, Xarkov, Nikolayev, Dnepr, Odessa, Mariupol da separatçıların nəzarətinə keçməli idi. Bir ara, hadisələr məhz bu istiqamətdə inkişaf edirdi, adları çəkilən şəhərlərdə rus separatçıları xalqı küçələrə səsləyirdilər, Kiyev bir az da geciksəydi, Ukrayna bu bölgələri də itirəcəkdi. Ancaq təcili silahlanan ukraynalı millətçi qruplar buna imkan vermədilər və bu şəhərlərdə nəzarət bərpa olundu".

**Maydandan 3 il keçdikdən sonra Ukraynada vəziyyətin nisbətən stabilləşdiyini deyən E.Şahinoğluna görə, bir sıra addımlar atılsa da, Ukrayna hakimiyyəti konseptual problemləri hələ həll etməyib, iqtisadiyyat və sosial islahatlar ləng gedir, yeni iş yerləri açılmır, zavod və fabriklər tam gücü ilə işləmir, ən əsası da Krım və Donbasın bir hissəsi hələ də Rusiyanın nəzarəti altındadır ki, bu torpaqların sonrakı taleyi hələ də müəmmalıdır:** "Ukraynanın sabit və inkişaf edən dövlətə çevrilməsi üçün birincisi, korrupsiyanın miqyası azalmalıdır, çünki yağlı müəssisələr və əsas banklar yenə də oliqarxların əlindədir, iqtisadi islahatları sürətləndirmək lazımdır. Bunlar olmasa Ukraynanın indiki prezidenti Pyotr Poroşenkonun ikinci dəfə prezident seçilməsi çətindir. Ukraynalılar hər hansı siyasətçiyə çox etibar edib onu hakimiyyətin ən yüksək zirvəsinə qaldırıb, ancaq az sonra onu kürsüdən asanlıqla çölə də ata bilən millətdir. Təsadüfi deyil ki, Poroşenkonun reytinqi getdikcə azalır, onun əsas rəqibi Yuliya Timoşenkonun reytinqi isə artır. Rusiyaya da elə Ukraynada Timoşenko kimi populist lider lazımdır".

❑ KƏNAN

# Azərbaycan yeni statusa doğru - maraqlı gəlişmə

**Son vaxtlar qardaş Türkiyənin İranla münasibətlərində böyük gərginlik müşahidə edilməkdədir. Buna iki ölkənin XİN rəsmlərinin, digər dövlət yetkililərinin axır vaxtlar səsləndirdikləri qarşılıqlı sərt açıqlamalar və ittihamlar şübhə yeri saxlamır. Söhbət əsasən Suriya, Yaxın Şərq böhranından, o sırada Bəşər Əsəd rejiminə iki paytaxtın fərqli yanaşmasından getsə də, bir çox təhlilçilər hesab edirlər ki, gərginliyin kökündə daha ciddi mətləblər, o cümlədən maraqların ənənəvi toqquşması dayanır.**




## Ağırlıq mərkəzi Bakıya keçir - Qarabağ üçün yeni fürsət

### Generalların Bakı görüşü regional və qlobal siyasətdə ölkəmizin güclənən rolunun təsdiqidir; Türkiyə-Rusiya böhranının aradan qalxmasında mühüm rol oynayan Bakı gərginləşən İran-Türkiyə, İran-ABŞ əlaqələrinə də sanballı töhfə verə bilər; "Nezavisimaya qazeta": Əliyevin moderatorluğu görüşləri daha effektli edərdi..."

Paralel surətdə İranla Tramp ABŞ-ı arasında gərginlik böyüməkdədir. İstər-Tehran-Ankara, istərsə də Tehran-Vaşinqton münasibətlərinin böhrana girməsi isə strateji maraqlar baxımından Azərbaycana sərf eləmir. Ən azı, ona görə ki, vəziyyətin bu cür - konfrontasiya üslubunda inkişafı Bakını lüzumsuz geosiyasi seçim qarşısında qoya bilər ki, bu da Azərbaycanın xarici siyasətdə üstünlük verdiyi balanslı və neytral kursla ziddiyyət təşkil edir.

Hərçənd çıxış yolu var: bu da tərəflərə münasibətdə Bakının neytrallığı və balansı saxlamaqla vasitəçi və barışdırıcı missiyaya prioritet verməsidir. Artıq yaxşı nümunə də mövcuddur: bəllidir ki, rəsmi Bakı, prezident İlham Əliyev məlum təyyarə insidenti ilə bağlı Rusiya ilə Türkiyə arasında yaşanan böhranın aradan qalxmasında mühüm rol oynayıb.

Sözsüz ki, ötən həftə Bakıda ilk dəfə ABŞ və Rusiya Silahlı Qüvvələri Baş Qərargah rəislərinin görüşünün keçirilməsi də məhz Azərbaycanın vasitəçilik və neytrallıq missiyası və potensialının layiqincə qiymətləndirilməsinin təzahürü idi. Prosesin dinamik olacağı, ölkəmizin qlobal və regional siyasətdə yerinin artacağı istisna edilmir.

***

**"Nezavisimaya qazeta"nın analitiki Nikita İsayevin bu xüsusda şərhi diqqət çəkir. Musavat.com-un adıçəkilən nəşrə istinadən məlumatına görə, politoloq öncə Minskin həm Dağlıq Qarabağ (ATƏT-in Minsk Qrupu), həm də Ukrayna böhranı ilə bağlı ("Minsk dördlüyü") görüş məkanı olmasına rəğmən, indiyədək hər iki problemin aradan qalxmasında indiyədək heç bir irəliləyiş baş vermədiyinə diqqət yönəldir.**

"Bu xüsusda alman nəşri "Tagesspiegel" yazıb ki, Ukraynaya dair Minsk anlaşması əslində Avropa diplomatiyası üçün fiasko olub. Nədən ki, ötən iki ildə həmin anlaşmanın bir bəndi belə, yerinə yetirilməyib. Bu mənada prezident Aleksandr Lukaşenko öz mövqelərini artıq əldən verir. Beləcə, Minsk sülhməramlı ərazi ola bilmədi. Özünün əlverişli coğrafi mövqeyi ilə bu yeri indi Azərbaycan doldura bilər. Bu ölkə Rusiya, Hindistan, İran, Türkiyədən ibarət "sərt qoşma" üçün çox effektli və səmərəli uyğunluq təşkil edir", - deyə təhlilçi qeyd edib.

**Ekspert fikrini belə izah edib:** "Bunun üçün zəmin var. Azərbaycanın İranla ortaq dini *(məzhəb ortaqlığı nəzərdə tutulur-red.)* iki dövlətin yaxın əlaqələrindən xəbər verir. Həmçinin Azərbaycanın ABŞ-la iqtisadi sferada fəal əməkdaşlığı Vaşinqtonla Bakı arasında əlaqələri qaydada saxlamağa kömək edir. Buradan çıxan nəticə: Azərbaycan ABŞ-İran əlaqələrinin yaxşılaşması üçün heç də pis vasitəçi deyil - hansı əlaqələr ki, son vaxtlar yenidən ciddi şəkildə pisləşib".

**Politoloqa görə, Bakı müxtəlif formatlarda Rusiya-ABŞ görüşləri üçün də məqbul məkan ola bilər:** "Və bu görüşlərdə təkcə Suriya məsələsi deyil, başqa mövzuların da müzakirəsi mümkündür. ABŞ və Rusiya hərbi rəhbərliklərinin bu yaxınlardakı Bakı görüşü beynəlxalq problemlərin nizamlanması üçün Azərbaycanın yeni meydança qismində cazibədarlığını sübut etdi. Ehtimal eləmək çətin deyil ki, həmin görüşdə İran mövzusundan da yan keçilməyib".

**Analitik şərhini belə tamamlayıb:** "Madam ki, Minsk anlaşmasına olan ümidlər günbəgün əriyir və Ukrayna problemi tezliklə yeni görüşlərin keçirilməsini və yeni formatlar diktə edəcək, Azərbaycan meydançası "yeni Minsk" ola bilər. Yalnız bir fərq var: İlham Əlıyevin vasitəçi kimi rolu bu görüşləri daha sanballı və effektli etmək şansına malikdir. Hər necə olmasa, belə tədbirlər üçün güclü moderatorun olması vacibdir".

***

Beləliklə, Azərbaycan regional və qlobal siyasətdə yeni və milli maraqlarımız baxımından daha əlverişli bir statusa doğru irəliləməkdədir. Bakının böyük siyasətdə ağırlıq mərkəzlərindən birinə - neytral ölkə kimi görüş yerinə çevrilməsi isə bir çox ekspertlərə görə, Azərbaycanın öz əsas problemini - Qarabağ məsələsini günün birində dünya gündəminə daha rahat gətirmək üçün unikal fürsət yarada bilər.

❑ Siyasət şöbəsi

# Xocalını 25 ildir Haaqaya "apara" bilmirik-deputatın şərhi

### Deputat: "297 nəfərdən hətta biri məhkəmə qarşısında cəzalanarsa, bu, Azərbaycana müəyyən siyasi üstünlüklər qazandırar"



**Fevralın 26-da Xocalı soyqırımının 25 ili tamam olur. Xocalı soyqırımının 25-ci ili ilə əlaqədar olaraq prezident İlham Əliyevin başçılığı ilə fevralın 26-da "Ana fəryadı" abidəsi önünə yürüş ediləcək.**

Şəhidlərimizin xatirəsini anıb, tədbirlər keçirib ötən əsrin ən böyük faciəsini dünya ictimaiyyətinə çatdırmağa çalışsaq da, hələ də bir çox ölkələr Xocalı soyqırımını rəsmən tanımayıblar. Eyni zamanda Xocalı faciəsinin əsas cəlladlarını da beynəlxalq Haaqa Məhkəməsi qarşısına çıxara bilmirik.

Ötən il "Xocalı soyqırımı beynəlxalq hüquq müstəvisində" adlı tədbirdə Milli Məclis Aparatının İnzibati və hərbi qanunvericilik şöbəsinin müdiri Nizami Səfərov bildirmişdi ki, bunun səbəbi Haaqada yerləşən məhkəmədə sırf bu məsələ ilə bağlı orqanın olmamasıdır: "Orada Yuqoslaviya hadisəsi ilə bağlı məhkəmə fəaliyyət göstərir ki, bu, sırf 90-cı illərin əvvəlində orada baş verən hadisələri araşdırır. Ruanda hadisəsi ilə bağlı tribunal da var. Livanın baş nazirinə qarşı sui-qəsdlə bağlı da məhkəmə var. Bir də beynəlxalq cinayət məhkəməsi fəaliyyət göstərir ki, bu da 2000-ci ildən sonrakı hadisələri araşdırır. Çox təəssüf ki, Xocalı soyqırımını araşdıra biləcək hüquqi orqan yoxdur. Bir nəfərin ölümü ilə bağlı orada məhkəmə orqanı var, amma belə kütləvi soyqırımla bağlı yoxdur. Bu, ikili standartların nəticəsidir".

**Deputat Zahid Oruc "Yeni Müsavat"a bildirib ki, biz daha çox torpaqlarımızın işğaldan azad edilməsi üçün çalışmalıyıq:** "Tarixdə ayrı-ayrı millətlərə qarşı baş vermiş soyqırım aktlarının nəticəsində ona verilən hüquqi qiymətlər milli çərçivələri aşıb. Bu, mütləq beynəlxalq məhkəmələr vasitəsilə gerçəkləşdirilib. Lakin xüsusi vurğulamaq lazımdır ki, belə addımlar yalnız xarici siyasi iradənin nəticəsində meydana çıxır. Balkanlarda Yuqoslaviyanın dağıdılması gedişində Serbiyanın keçmiş prezidenti Slobodan Miloşeviçin albanlara qarşı əməlləri soyqırım kimi tanındı və o, həmin məhkəmədə mühakimə edildi. Prosesin sonunda isə dünyasını dəyişdi. Bununla bərabər açıq demək lazımdır ki, söhbət Balkanların yeni xəritəsinin cızılmasından gedirdi. Serblərin həmin regionda titullu millət anlayışı ilə imperiya quruculuğu hissini durdurmaq və bölgəni Rusiyanın təsirindən çıxarmaq üçün yeni dövlətlər meydana çıxarmalı idilər. Bunun nəticəsində də hüquq, siyasi maraqlara alət edildi. Ruanda və digər məsələlərdə də bir neçə dövlətin qərarı həlledici xarakter daşıyıb. Ona görə də Milli Məclisdə son aylar ərzində İnsan hüquqları komitəsinin təşəbbüsü ilə beynəlxalq cinayətlərin qarşısının alınması və cəzalandırılması ilə bağlı qanun layihəsi, hüquqi baxımdan Azərbaycanın hakimiyyət orqanlarının hərəkətlərinin gələcək fəaliyyətinin çərçivəsini daha dəqiq müəyyənləşdirir. Hətta Hərbi Prokurorluq tərəfindən adı günahkar şəxslər kimi qeyd edilmiş 297 nəfərdən birinin hər hansı bir məhkəmə qarşısında Lapşin kimi cəzalandırılması baş versə, bu, Azərbaycana müəyyən siyasi üstünlüklər qazandırar".



**Deputat bildirib ki, biz nəzərə almalıyıq ki, mübarizəmizin hədəfi işğalın qurbanlarının qisasının alınmasıdır:** "Lakin millət olaraq vəzifəmiz, Xocalının bu təcavüzü özündə əks etdirən ən böyük faciə olduğuna rəğmən, torpağımızın işğaldan azad olunmasına nail olmaqdır. Hətta 50 adamın cəzalandırılması belə bizi öz istəyimizə çatdırmır. Torpaq ki, işğalda qalır axı... Verilən beynəlxalq siyasi qiymətləndirmələr, parlamentlərin qərarları bizi sakitləşdirmək üçün deyil. Mahiyyətcə biz o hədəf uğrunda vuruşuruq ki, bu qərarlar nəhayətdə Ermənistanı mühakimə etməyə imkan versin. Qeyd olunsun ki, sizin bu millətə qarşı belə bir əməliyyatı törətməyiniz işğalın nəticəsində baş verib. Ermənilər əməliyyat keçirib, yenidən öz sərhədlərinə dönməyiblər. Bu gün də həmin işğal davam edir. Bu baxımdan, hesab edirəm ki, biz Xocalının tanıdılmasını və ya onun hüquqi cəhətdən qiymətləndirilməsini torpağımızı geri qaytarmaq uğrunda mübarizənin tərkib hissəsi kimi aparırıq. Bu soyqırımın tanıdılması və ya cəzalandırma mübarizəsi də illər ərzində mühüm bir səviyyədə gedib. Bu qətiyyən inkarolunmazdır. Ancaq biz bunu, baş hədəfi unutmadan aparmalıyıq".

**Z. Oruc qeyd edib ki, ümumilikdə soyqırım məğlubiyyət hadisəsidir:** "Bütövlükdə Xocalı faciəsi hüzn hadisəsidir. Ona görə də bizi bu hadisədə tamamilə ermənilərlə eyni yolu getməyə kimsə sürükləməməlidir. Onlara görə zəif millətlərin soyqırım ideologiyaları olur və bu cür mübarizə aparırlar. Mənim aləmimdə böyük millətlər tarixin hansısa səhifəsində soyqırıma məruz qalırlarsa, bunu həmin dövrün hadisəsi kimi qeyd edirlər. Mənim yanaşmam bundan ibarətdir ki, bizim xüsusi vəzifəmiz torpaqlarımızı qaytarmaqdır. Soyqırımla bağlı proseslər buna imkan verir ki, Ermənistanı müəyyən qədər ifşa etmək mümkün olsun".

❑ Əli RAİS

YENİ MÜSAVAT
N 42 (6656) 24 fevral 2017

# "Amerikanı dəlik-deşik edərik" deyən Dmitri Roqozinin şəcərəsində türk izi

## Rusiya Federasiyası baş nazirinin müavini aktyor olmaqdan son anda niyə imtina edib?

**Tutduğu vəzifələrin uzun siyahısı bir səhifəyə sığmaz. Sinəsini bəzəyən orden-medalların çəkisi tərəzinin bir gözünü xeyli aşağı əyər. Ən vacibi - o, indi Rusiya-Azərbaycan iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın həmsədridir. Deməli, indən belə Rusiya ilə aramızda nə qədər düyünlü-düyünsüz söhbətlər varsa, hamısı bax bu şəxsin dar süzgəcindən keçəcək.**

Belələrinin psixoloji portreti adətən öncədən çəkilib yuxarılara təqdim olunur. Bioqrafiyası zərrəbinlə öyrənilir. Barəsində xüsusi qovluq açılır. Bütün dosyelər, kompromatlar yığılır ora. Üzərinə "Tam məxfi" qrifi vurulub yerləşdirilir dəmir seyflərin əlçatmaz dərinliyinə.

Gəlin, indi mən sizi bu məxfi dosye ilə yaxından tanış edim.

***

<u>DOSYE: DMİTRİ OLEQOVİÇ ROQOZİN.</u> 21 dekabr tarixində Moskvada dünyaya göz açıb. Ulduz falı 50 faiz Stalininki ilə, 50 faiz Mixail Saakaşvilininki ilə demək olar eynidir. Stalinə loyallığı, görünür, şəxsi bioqrafiyasının bu gizli ştrixi ilə bağlıdı. Saakaşvili ilə isə onun göydəki...bəli, məhz göydəki bəxt ulduzları barışmır. Hələ ki bu döyüş kosmosdan yerə enməyib. Yerə enincə, döyüşün həqiqi qalibi axırda bəlli olacaq.

Çəkisi - 89 kiloqram. Hündürlüyü 179 sm. Ən çox sevdiyi meyvə bizim yapon xurması, xirnikdir. Azərbaycan tərəvəzlərinin əvəzsiz dadını heç vaxt unudan deyil. Milli mətbəximizə xüsusi dəyər verir. Biləndə xirniklə, pomidorla dolu 500 TİR yeni il ərəfəsində Rusiya-Azərbaycan sərhədində ilişib qalıb, tənbəllik eləməyib. Bakıdan avtomobilini sürüb düz sərhəd qapısına. Rusiya qapılarını məhz özü açıb bu uzun karvanın burnu ucunda. Karvanı Rusiyaya buraxıb. Sonra öz tvitter səhifəsində görün bir nə yazıb: **"Qarşıdan Yeni il gəlir. Biz gözləyirik Azərbaycandan Rusiyaya gətirilən meyvə-tərəvəz, habelə digər məhsullar sərhədi maneəsiz keçəcək. Bayramadək rusiyalıların masasına çatdırılacaq. Biz bu məhsulların keyfiyyətini həmişə yüksək qiymətləndiririk".**

Qısası, operativ, əlüstü iş görənlərdəndi. İşləri düyünləmir. Əksinə, düyünləri açmağa, müşkülləri həll etməyə meyllidi.

İstənilən an o, "uf" demədən yüzlərlə, minlərlə lüzumsuz kadrı qələminin bircə imzasıyla gedər-gəlməzə, təqaüdə, istefaya göndərə bilər. Rusiya-Azərbaycan Hökumətlərarası Komissiyanın həmsədri təyin olununca, düyməni basaraq katibəsini təcili içəri çağırıb. Komissiya üzvlərinin siyahısını isti-isti, təcili sifariş edib. Qələmini süngüyə çevirərək siyahı üzərində bir xeyli işləyib. Sonra dövrü mətbuatdan bəlli olub ki, energetika naziri Natiq Əliyev, müdafiə sənayesi naziri Yavər Camalov, Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov komissiya üzvlüyündən çıxarılıblar.







Hazırladığı təzə siyahı isə görünür, hələ müzakirə mövzusudur.

***

Hələ 9-cu sinif şagirdi ikən bir əlaçı kimi vaxtından əvvəl, imtahansız-filansız Moskva Dövlət Universitetinin 1-ci kursuna qəbul olunub. Ancaq deyəsən, jurnalist həmkarları ilə münasibətləri bir o qədər cur deyil. O da Donald Tramp kimi öz açıqlamalarını tvitterə ötürür, nəinki dövrü mətbuata. Bölüşdüyü statuslar həmişə pərdəarxası mənasıyla seçilir. Misal üçün, Bakıdan yazdığı "Soyuq və günəşli Bakıda ticarət-iqtisadi əməkdaşlıq üzrə Azərbaycan-Rusiya Hökumətlərarası Komissiyasının birgə iclası başlayıb". Tvitter statusu görün bir nə qədər çox mənalıdır. Statusda aramızdakı soyuqluğa da işarə var, qaynar münasibətlərə də.

Roqozin sözün həqiqi, hərfi mənasında şahin baxışlı xüsusi dövlət xadimidir. Əvvəla, o, təcrübəli pilotdur. "Rosaviatsiya"nın 2015-ci ildə verdiyi xüsusi lisenziyaya görə Roqozin helikopterin sükanı arxasında rahat əyləşib onu istədiyi ünvana sürə bilər. Amerika jurnalı "Forbes" Roqozini "Rus xarici siyasətinin baş şahini" adına deyirsiz təsadüfən layiq görüb, hə?

Qısası, Dmitri Oleqoviç dünyaya, o cümlədən Azərbaycana təkcə yerdən deyil, göydən də baxmağı bacarır. Rusiya müdafiə sənayesinin bu baş memarı Azərbaycan səmasına bizdən də yaxşı bələddi. Bilir ki, dünyanı tən ortadan bölən meridian xətt - adına "Haushoffer qövsü" deyilən yarıq, Rusiya-Azərbaycan-İran hava ərazisini birləşdirir. Bircə saatlığa bu dəhlizi qapat, vəssalam, Şərqdən-Qərbə, Qərbdən-Şərqə gedən bütün aviasiya trafiki anında pozulacaq. İndi NATO təyyarələri bu xəttin ancaq Azərbaycan hissəsindən ötüb öz uzaq hədəflərinə - Əfqanıstana yetişə bilirlər. Amma bir gün Azərbaycan Roqozinin xahişi ilə bu dəliyi bağlasa, görün, nə baş verər bütün dünyada? Ara qızışar, məzhəb itər. NATO qalar yana-yana. Şərqdən Qərbə, Qərbdən Şərqə bircə addım belə ata bilməz. Dünyada, bir görün, nə qədər silkələnmələr baş tutar?

***

Dmitri Oleqoviç Roqozinin şahin xisləti, iti baxışları həm də onun sərrast atıcı olması ilə də əlaqədardır. Xüsusi şəxsi kolleksiyasında yüzlərlə nadir silah nümunəsi toplanılıb. Hə...unutmuşdum az qala. Roqozin özü həm də silah ixtiraçısıdır. Rusiyada qeydə alınmış 2570851 saylı patentin sahibidir. Deyilənə görə, bu sənədə o, ixtira etdiyi tam yeni tüfəngə görə layiq görülüb.

Oğlu - 34 yaşlı Aleksey Roqozin də Rusiya hərbi-sənaye kompleksində atasının yerişini təkrarlayır elə bil. 2010-cu ildən cavan olmasına baxmayaraq "Promtexnologiya" silah fabrikində çalışır. Vəzifəsi də əladır - direkror müavini.

***

Oxatan bürcü altında doğulmaq faktı da Roqozinin iti baxışlarını, cəldliyini elə lap uşaqlıq günlərindən təyin edən ən vacib cəhətlərindən biridir.

KQB-də qulluq etmək arzusu lap elə uşaqlıq günlərindən başlayaraq Roqozini daim təqib edib. Tələbəliyinin birinci ilində seçib evləndiyi Tatyana Serebryakova, deyilənə görə, yüksək vəzifəli KQB zabitinin qızıdı. Yəni Roqozin öz seçimini edərkən, bir oxatan kimi, çox uzaq hədəfləri güdür həmişə. Onun əsas baş hədəfləri yaxında deyil, çox-çox uzaqlardadı.

***

İndi keçək Roqozinin siyasi səhvlərinə.

Müasir Kreml sakinlərinin ucdantutma hamısı prezident Vladimir Putini nümunə götürərək onun kimi iki əlli, yəni ambidekstr olmaq istəyir. Roqozin də bu siyahıda istisna deyildir.

Ancaq ambidekstr olmaq arzusu Roqozini elə ilk günlərdən sərt imtahanlara məruz qoyub.

Ambidekstr olmağın bir şərti də hər iki əldən eyni anda atəş açmaq bacarığıdır. Atıcılar arasında "Makedonsayağı atış üsulu" deyilən bu döyüş taktikası Roqozinə həmişə baha başa gəlib. Dmitri Oleqoviç bir dəfə bu bacarığını lentə çəkərək onu tvitter səhifəsinə yerləşdirib. Sonra istəyib bu istedadını bütün Rusiyaya tirajlasın. Klipin çəkilişi zamanı ehtiyatsızlıq ucbatından Roqozin görün bir nə qələt edib?!

Öz ayağını kor güllələ yaralayıb...

Sonra tələm-tələsik hərəkət edərək tvitter səhifəsindəki o köhnə videolentini silib tamam. Yeni il ərəfəsində Kremldə keçirilən qəbuldan kənarda qalıb. Putinin iti baxışlarından bütün bunlar yayınmayıb. Növbəti dövlət iclaslarının birində Putinin Roqozinin ünvanına işlətdiyi "Qalstukunuzu niyə yaxşı düyünləmirsiz?" iradı, görünür, boş yerdən yaranmayıb.

Bəziləri isə bunu başqa səbəblərlə izah edirlər. Deyirlər, Roqozinin rəhbərliyi altında tikilmiş "Vostoçnı" kosmodromunda fəhlələr aylarla maaşdan məhrum qalırmışlar. Kosmodromdan havaya raket buraxılışı ilk təşəbbüsdən alınmayıb. Nəticədə Putinin qaşları çatılıb. Qalstuk barədə məlum iradını da Putin məhz o zaman - 14 may 2016-cı ildə səsləndirib.

***

Dmitri Oleqseyeviç Roqozinin çox saylı istedadları sırasında aktyorluq da var. Roqozin barəsində məqalə müəllifi Zoya Svetova bunu nəzərə alaraq görün bir nə deyib: **"1981-ci ildə Roqozin öz sənədlərini Ümumittifaq Kinematoqraflar İnstitutunun aktyorluq fakültəsinə verib konkursdan qələbəylə çıxsa da, ay dadi-bidad, tezliklə sənədlərini geri götürür. Gedib girir Lomonosov adına Moskva Dövlət Universitetinin jurnalistika fakültəsinə. Beləliklə ölkəmiz o zaman bir istedadlı aktyoru itirir. Əvəzində bir jurnalist, bir siyasətçi qazanır özünə".**

Yox... Zoya Svetova, deyəsən, Roqozini yaxşı tanımır. Onun istedadı təkcə elə aktyorluq, jurnalistika, siyasətlə məhdudlaşmır. Unutmayın, Roqozinin istedadları sırasında yazıçılıq da var. Məsəl üçün, o, bir neçə il əvvəl "Boron Joltok" adlı avtobioqrafik əsərini qələmə alıb. Bu əsərində o, anası Natalya Borisovna Mitkeviç-Joltokun qədim şəcərəsi ilə çox öyünür. Bəlli olur ki, 1908-15-ci illərdə Roqozinin ulu babası general-mayor Nikolay Mitkeviç Joltok Moskva polismeysteri olub. Sonra Denikinlə birgə Leninə qarşı son damla qanınadək vuruşaraq qəhrəmancasına həlak olub.

Roqozin bu əsərində öz nəslinin Avropa qanadını çox qabartsa da, qədim türk kökləri barədə danışmağı nədənsə unudur. Biz də məcbur qalırıq indi ona bu türk köklərini xatırlatmağa.

Demək belə. Məni yaxşı-yaxşı dinləyin. Roqozinin ulu babası Baygildey Rozqozin ( Rza+xoca) hələ 1560-cı ildə Rusiya qulluğuna girərək Moskva tərəfindən Noqay yurduna səfir təyin edilib. Roqozinin bir başqa qohumu Taşlık Vasilyeviç Razqozin 1596-cı ildə Tver şəhərində vəzifə sahibi imiş.

Dmitri Oleqoviçə məsləhət görərdim, öz nəslinin Avropa köklərini deyil, məhz türk kötüklərini öyrənib qələmə alsın. Avropa Şurası Krım hadisələrinə görə Roqozini çoxdan qara siyahısına salıb axı. Yəni Avropa istiqaməti Roqozin üçün çoxdan qapalıdır. Prespektivsizdi. Məsələn, 10 may 2014-cü ildə Rumıniya hökuməti öz hava ərazisindən istifadə etməyi Roqozinə yasaq edib. Roqozin öz köhnə adətincə Rumıniyanın cavabını özünün tvitter səhifəsində verib. Deyib, bəs növbəti dəfə Rumıniya üzərindən hərbi bombardman təyyarədə uçacaq.

**Yox yerdən yaranmış diplomatik skandalı başqaları həll edib.**

**Sözümün "mustafa"sı odur ki, Roqozin Avropa deyil, Avrasiya mənşəlidir. Qoy, o, öz türk köklərini unutmasın. Ruzi-bərəkət bizdədi.**

**Bizdən fərqli olaraq Avropada bu gün onu heç kim gözləmir.**

❑ **Həmid HERİSÇİ**

YENİ MÜSAVAT
N 235 (6556) 24 oktyabr 2016

# Çovdarov taktikanı dəyişdi: "Susmaq qızıldır..."

## Onunla mühakimə edilən polkovnik Mirəziz Əsgərovun insult keçirməsindən sonra generalın susqunluq nümayiş etdirməsinin sirri…

**Sabunçu Rayon Məhkəməsinin binasında ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin həbsdə olan sabiq rəisi, general-mayor Akif Çovdarov və onunla birlikdə həbs edilən MTN əməkdaşları - Səlim Məmmədov, Akif Əliyev və Orxan Osmanovun cinayət işi üzrə proses davam etdirilir.**

Ötən aylar ərzində iş üzrə əsas təqsirləndirilən A.Çovdarov ittiham tərəfi ilə çəkişməsi, şahid və zərərçəkənlərin söylədiklərini yalana çıxarmağa cəhd etməsi ilə yaddaşlarda qalıb, səs-küylü açıqlamalar verməklə günlərlə mətbuatın gündəmindən düşməyib. 2016-cı il sentyabrın 20-də iş üzrə keçirilən məhkəməyə hazırlıq iclasından başlayaraq A.Çovdarov daima danışıb, onu ittiham edənləri ittiham edib. Son 2-3 məhkəmə prosesində isə Akif Çovdarov susqunluq nümayiş etdirir. Ümumiyyətlə, danışmır, səsini belə çıxarmır.

Akif Çovdarovu birdən-birə belə susmağa məcbur edən, görəsən, nədir? Öldürüləcəyindən qorxur, yoxsa bu, müdafiə taktikasıdır?

A.Çovdarov susqunluq nümayiş etdirməyə başladıqdan əvvəlki prosesdə, daha dəqiq desək, fevralın 15-də keçirilən məhkəməsində ölüm növbəsinin ona çatdığını açıqlamışdı. Məhkəmədə elə belə də demişdi: "Növbədə mənəm". O, prosesdə ləğv edilmiş MTN-in Əks-Kəşfiyyat Şöbəsinin rəisi olmuş polkovnik Mirəziz Əsgərov fevralın 14-də 1 saylı Bakı İstintaq Təcridxanasında insult keçirdiyini açıqlamışdı. Çoxsaylı cinayət əməllərində ittiham edilən M.Əsgərovun dərhal Penitensiar Xidmətin Müalicə Müəssisəsinə aparıldığını hakimin diqqətinə çatdırmış, M.Əsgərovun üzləşdiyi hadisəni həm də özünə xəbərdarlıq kimi qiymətləndirdiyini demişdi.



Bildirmişdi ki, insult keçirən polkovnik xəstəliyi ilə bağlı dəfələrlə müraciətlər edib. Amma onun müraciətləri cavabsız qalıb. "Mirəziz Əsgərov dəfələrlə müayinə və müalicə tələb edirdi. Amma ona heç bir ixtisaslı həkim-kardioloq tərəfindən yardım göstərilmədi. Məndə də bu xəstəliklər var. Birinci İlqar getdi, indi də Mirəziz belə oldu. Növbədə mənəm" deyə, Akif Çovdarov bildirmişdi.

Mirəziz Əsgərovun səhhətinin təcridxanada pisləşdiyini, ürək xəstəliyinə tutulduğunu vurğulayan A.Çovdarov özünün də durumunun ağır olduğunu, amma müayinə və müalicəsinə imkan yaradılmadığını, müraciətlərinə isə cavab verilmədiyini deyib: "İnsan nə qədər yazar ki, müayinə edin?! Hər yerə yazmışıq. Hakim deyir mənlik deyil, idarə deyir mənlik deyil. Bəs kimlikdir?"

Yada salaq ki, A.Çovdarov bundan əvvəl də özünün və keçmiş iş yoldaşlarının həyatının təhlükədə olması ilə bağlı müraciətlər yayıb. Belə müraciətlərdən birində MTN-in Antiterror Mərkəzinin rəisi İlqar Əliyevin ölümü haqda fikirlərini vəkili vasitəsilə ictimaiyyətə çatdırıb. 2015-ci ilin dekabrında BİT-dəki kamerasında asılmış vəziyyətdə aşkarlanan İ.Əliyevin ölümü bu günə qədər müəmmalı olaraq qalmaqdadır. A.Çovdarov vəkili Kamandar Nəsibovun vasitəsilə mətbuata çatdırıb ki, i.Əliyev döyülərək öldürülüb və sonradan asılıb.

"Akif Çovdarov rəisə dedi ki, İlqar Əliyevi döyüb, sonra asıb öldürmüsünüz, o biri təqsirləndirilən şəxs Orxan Osmanovu döyüb, yalandan ifadə almısınız. İlqarı necə döyüb, öldürüb, sonra asıblar, hamısı dəqiqdir. Akif də deyir ki, mən bunlara etiraz olaraq özümü aclıq edib öldürəcəyəm. Eldar Mahmudova qarşı İlqar Əliyevdən ifadə almaq istəyiblər. Orxan Osmanovdan isə Akif Çovdarova qarşı ifadə almaq istəyiblər" deyə, vəkil bildirmişdi.

A.Çovdarovun polkovnik Mirəziz Əsgərovun insult keçirməsindən sonra susqunluq nümayiş etdirməsini onun susdurulması kimi qiymətləndirənlər də az deyil. Məsələ ilə bağlı A.Çovdarovun vəkilləri də hər hansı bir açıqlama verməkdən istəmirlər.

Qeyd edək ki, Akif Çovdarov və digər 3 şəxs Cinayət Məcəlləsinin 145.3-cü (qanunsuz azadlıqdan məhrumetmə ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda), 179.3.1, 179.3.2 (mənimsəmə və ya israfetmə mütəşəkkil dəstə tərəfindən külli miqdarda törədildikdə), 181.3.1, 181.3.2 (quldurluq mütəşəkkil dəstə tərəfindən külli miqdarda əmlak əldə etmək məqsədilə törədildikdə), 182.3.1, 182.3.2 (Hədə-qorxu ilə tələbetmə külli miqdarda əmlak əldə etmək məqsədilə törədildikdə ), 228.4 (qanunsuz olaraq qaz silahını, soyuq silahı, o cümlədən soyuq atıcı silahı əldə etmə, satma və ya gəzdirmə), 302.1, 302.2 (gizli qaydada informasiya alınması üçün nəzərdə tutulmuş texniki vasitələrdən istifadə edilməklə əməliyyat-axtarış fəaliyyəti haqqında qanunvericiliyi pozma), 311.3.1, 311.3.2, 311.3.3, 311.3.4 (rüşvət alma qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən hədə-qorxu tətbiq olunmaqla külli miqdarda və təkrar törədildikdə), 313 (vəzifə saxtakarlığı), 341.2.1, 341.2.2 və 341.2.3-cü (bir qrup şəxs tərəfindən silah tətbiq olunmaqla hakimiyyətdən sui-istifadə etmə, hakimiyyət həddini aşma və ya hakimiyyətdən istifadə etməmə ağır nəticələrə səbəb olduqda) maddələri ilə ittiham irəli sürülüb. Zərərçəkmiş şəxslərə vurulmuş ziyanın ödənilməsinin təmin olunması üçün məhkəmə qərarları əsasında təqsirləndirilən şəxslər Akif Çovdarov, Səlim Məmmədov, Akif Əliyev və Orxan Osmanova məxsus ümumilikdə 33 milyon 466 min manat dəyərində əmlak və pul vəsaitlərinin, o cümlədən 8 milyon 967 min manat dəyərində ticarət və xidmət sahələri, istilikxanalar, balıqçılıq təsərrüfatları və sair əmlak kompleksi, torpaq sahələri, 24 milyon 445 min manat dəyərində fərdi yaşayış evləri, mənzillər, nəqliyyat vasitələri və 37 min manat dəyərində zərgərlik məmulatlarının üzərinə həbslər qoyulub.

❑ **E.HÜSEYNOV**

# Qadını ipə aparan səbəb-psixoloqdan ilginc açıqlamalar



## **Vəfa Rəşidova:** "Psixoloji narahatçılığı olmayan insan istəyir 1 milyon borcu olsun, intihara əl atmaz"

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsindən verilən məlumata görə, 2016-cı ildə qadınlar arasında 176 intihar hadisəsi baş verib. Əvvəllər intihar edənlər arasında kişilər çoxluq təşkil edirdisə, son illərdə bura qadınlar və uşaqlar da daxil olub.**

Bəs qadının intihar etmə səbəbi nə ola bilər? Bunun arxasında sosial, yoxsa ailə problemləri dayanır?

**Psixoloq Vəfa Rəşidova** qadınların intiharının ağır depressiyadan irəli gəldiyini dedi: "Ciddi psixoloji narahatçılığı olan, ağır depressiya yaşayan insanlar daha çox intihara əl atır. Qadınların intiharı ağır depressiyadan irəli gəlir. Depressiyanın sonuncu mərhələsi intihardır. İnsanlar depressiyanı zarafata salıb. "Depressiyadayam bir ağlayım, depressiyadayam keçib gedəcək" kimi sözlər eşidirik. Bu yanlışdır. Depressiya sadə bir psixoloji sarsıntı deyil. Depressiyanın sonu intihardır. Bu birmənalıdır. Biz araşdırmalarımızda da görürük ki, bəzən səbəbi məlum olmayan ölüm hadisələri olur. Əgər bir insan intihara əl atıbsa, deməli, burada bir məna var. Psixoloji narahatçılığı olmayan insan istəyir 1 milyon borcu olsun, istərsə də ailədə problemləri olsun, intihara əl atmaz. Qadınlarda intiharı yaradan səbəblər nədir? Qadınlarımız ailədə basqı altında olur. Bizdə belə düşüncələr var ki, qadın itaətkar olmalıdır, qadın ərinin dediyini etməlidir. Böyük ailələrdə yaşayan qadınları götürsək görərik ki, orada bir az aşağılanmalar çox olur. Həyat yoldaşı ilə müəyyən problemlər yaşanır, xəyanətlə üzləşirlər. Yəni ailə problemləri də burada böyük rol oynayır. Amma yenə də səbəb bu deyil. İntihar halı bəzən genetikadan qaynaqlanır. Çox zaman insanlar bunu diqqətdən yayındırır ki, intiharın bir növü də genetik intihardır. İntihara gətirən yol, başlanğıc xanımın özünə inamsızlığı, özünü dəyərləndirməməsindən başlayır. Bu təbii ki, ailədən də qaynaqlanır. Bir qadının özünə, şəxsiyyətinə dəyəri itir və depressiyaya düşür. Bəzən hansısa qadın haqqında deyirlər ki, xarakteri tünddür, qaraqabaqdır, çəkilir otağına ağlayır və s. O qadının xarakteri qaraqabaq deyil, sadəcə olaraq, depressiyadadır, yaxınları isə bunu görmür. Çünki maarifləndirmə yoxdur. Biz, sadəcə olaraq, bunun simptomlarını bilsək, yaxınlarımıza kömək etmiş olarıq. Depressiya insanın canına hücum edir, amma həmən öldürmür. Sanki insanın canını asta-asta alır və birdən püskürəndə insan da intihara əl atır. İnsan durduğu yerdə heç vaxt intihar etmir. Amma bunun adını pulsuzluq, sosial problem qoymayaq. Bunun adı belə olmamalıdır. Bəzən intihar edən adam məktub yazır ki, filan banka bu qədər borcum vardı, intihar etdim. Bu belə deyil. Sadəcə, bu intihara bir təkandır. İntihar edən insanın ağlında bu olur, pulsuzluq isə intiharın sadəcə adı olur. Axı xanımın özü də bilmir ki, o depressiyadadır. İnsan özü özünə də kömək etmir. Ailə üzvlərindən kiminsə ürəyi ağrıyanda narahat olub onu həkimə aparırsan. Amma insanlar var ki, həmin o ağrıyla yaşayır, depressiya ilə bir ömür sürüb rəhmətə gedən insanlar olur".

**Psixoloq bildirdi ki, insan depressiyadan qaçmaq üçün müdafiə mexanizmindən istifadə etməlidir:** "Elə insanlar var ki, onlarda müdafiə mexanizmi güclüdür, elə insanlar da var ki, zəif. Müdafiə mexanizmi olan insanlar müqavimət göstərib depressiyadan tez çıxa bilir. Amma bir az usanan insanlar depressiyadan çətinliklə çıxırlar. Ümumiyyətlə, xarakterli insanlar depressiyaya az düşürlər. Amma daha çox başqalarının uğuruna diqqət edən, başqalarının həyat tərzini izləyən insanlar öz həyatlarını unudurlar. Mən qəbul edə bilərəm ki, balaca evdə yaşayıram, amma o biri qadın villada yaşayır. Məndən çox çalışıb bunu bacarıb. Amma elə insan da var ki, bunu qəbul etmir, deyir ki, niyə mənim yoxdur. Reallıqla barışa bilmir. Bu tip insanlar depressiyadan gec çıxır. Amma insanlar özünə təlqin etsə ki, mən reallıqla üz-üzə qalmalıyam, özümü xəyallar aləminə qapatmamalıyam, o zaman depressiyadan tez çıxa bilir. Depressiyada olan insanlar bu vəziyyətdən tək çıxa bilmirlər. Ətrafımızdakı insanlar nə dərəcədə bizə düzgün istiqamət verirlər?! Onlar bizə yaxşılıq etmək niyyəti ilə elə söz deyə bilərlər ki, doğrudan da bu onun ziyanına ola bilər. Ətrafdakı insanlarla, düzgün insanlarla ünsiyyətə girmək insanı depressiyadan çıxarda bilər. İntihara cəhd edib xilas olan qadınları danışdırsaq görərik ki, onların hamısı "çox peşmanam", "yaxşı ki, mənim intiharım baş tutmaqdı" sözünü deyir. İntihar ani bir haldır. İntihar edən qadın hər şeydən yorulmuş bir qadın olur və çıxış yolunu ölümdə görür. Amma bilir ki, bu çıxış yolu deyil. "Mən bezmişəm", "Bir gün çıxıb gedəcəm" siqnalları verməklə o qadın yaxınlarından imdad istəyir. O imdadı görməyəndə isə intihara cəhd edir".

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT
N 42 (6656) 24 fevral 2017

**Hər il Yeni il və Novruz bayramı ərəfəsində ərzaq məhsullarının qiymətində bahalaşma müşahidə edilir. Bu il isə bahalaşma bayramdan xeyli öncə baş verdi. Novruzun gəlməsinə 1 ay qalmasına baxmayaraq indidən artıq bir sıra ərzaq məhsullarında bahalaşma müşahidə edilir.**



# Novruz cibimizi soymağa gəlir

## "Bütün dünyada böyük bayramlar öncəsi qiymətlərdə endirim olur, bizdə isə əksi baş verir"

Ekspertlər bu bahalaşmanın bayram həftəsində pik həddə çatacağını bildirirlər. Əvvəllər 7-8 manata satılan ət hazırda 12 manatadır. Bayram öncəsi isə ətin kilosunun 15 manat olacağı deyilir. Nəzərə alsaq ki, bayram günü süfrədə əsasən ət yeməkləri olur, bu qiymətlə bir çox ailələr ürəklərincə olan bayram süfrəsi aça bilməyəcək...

Qeyd edək ki, Azərbaycan Dövlət Statistika Komitəsi 2017-ci ilin yanvar ayının yekunları ilə bağlı hesabatında əhalinin nominal gəlirlərinin ötən ilin analoji dövrü ilə müqayisədə 4,6 faiz artaraq 3,48 milyarda çatdığını bildirib. Hesabata görə, qeyd olunan dövrdə əhalinin adambaşına düşən gəliri 3,4 faiz artaraq 358,6 manat təşkil edib. Bundan başqa, qeyd olunub ki, əhalinin sərəncamında qalan gəlirlər ötən ilin yanvar ayı ilə müqayisədə 4,5 faiz artaraq 3,14 milyard manat təşkil edib.

Maraqlıdır, əgər bu qədər artım varsa, bu gəlirlər hara gedir? Nəyə görə gün keçdikcə bahalaşma pik həddə çatır?

**İqtisadçı ekspert Natiq Cəferli qiymət artımının gözlənilən olduğunu dedi:** "Bayramlar öncəsi Azərbaycanda qiymətlər həmişə bahalaşıb. Bütün dünyada böyük bayramlar öncəsi qiymətlərdə endirim olduğu, kampaniyalar həyata keçirildiyi, vətəndaşların xeyrinə qərarlar verildiyi halda, bizdə əksi baş verir. Dünyanın əksər ölkələrində rəqabətli bir mühit fəaliyyət göstərir, Azərbaycanda isə illərdir bunun tam əksidir. Ona görə də ölkəmizdə qiymətlər həmişə qalxıb. Son vaxtlar bir sıra neqativ məsələlər üst-üstə gəldi, buna görə də qiymətlərin artım tempi sürətləndi. Ölkənin idxaldan ciddi asılılığı var. Yerli istehsal adı altında bazara çıxarılan məhsulların belə xammalının böyük bir hissəsi xaricdən gəlir. Məzənnənin tez-tez dəyişməsi, manatın dəyərdən düşməsi qiymətin bahalaşmasında mühüm rol oynayır. Əhali hesab edirdi ki, dollarda az da olsa ucuzlaşma müşahidə olunursa, bu, qiymətlərə həmən yansımalıdır. Əslində isə bu belə deyil. Heç olmasa bir neçə ay məzənnədə stabillik olmalıdır ki, bu, qiymətlərdə öz əksini tapsın. İkinci məsələ isə mövsümi məsələdir. Azərbaycanda kənd təsərrüfatı məhsullarının, ərzaq məhsullarının uzun müddət saxlanılması üçün bir infrastruktur qurulmayıb. Azərbaycanda çox az sayda soyuducu kameralı böyük anbarlar var. Bu da yerli məhsulların mövsümlə əlaqədar bitməsindən sonra xaricdən daha çox məhsulun gəlməsi ilə əlaqədardır. İndi Azərbaycana xaricdən daha çox yeyinti və ərzaq məhsulları daxil olur. Bununla əlaqədar qiymətlərin artması gözləniləndir. Bu proses Novruz qabağı daha da sürətlənə bilər. Novruz süfrəsinin ötən illə müqayisədə 37 faiz baha başa gəlməsinə gəlincə isə hətta rəsmi rəqəmlər də sübut edir ki, keçən ilin müvafiq dövrünə nisbətən ərzağın qiyməti 15 faiz artıb. Əgər rəsmi statistika 15 faizlik inflyasiyanı boynuna alırsa, real göstərici ən azı bundan iki dəfə artıqdır. Çünki bizdə rəsmi statistika çox zaman rəqəmləri iqtisadi parametrlərə görə deyil, hökumətin rəsmi kursuna görə açıqlayır".

**Ekspert Azərbaycanda real gəlirlərin artmadığını dedi:** "Nominal gəlirlərdə müəyyən artımlar ola bilər. Çünki indeksləşmə baş verdi. Azərbaycan prezidentinin fərmanı ilə təqaüdlərin, büdcə təşkilatlarında çalışanların maaşlarında müəyyən artım baş verdi. Bu, nominal artımdır. Real artım o zaman olur ki, əhalinin gəlirlərinin artımı inflyasiyadan yüksək olsun. Əgər indi gəlirlər 7 faiz artıbsa, rəsmi inflyasiyanın 12 faiz, ərzaq bahalaşmasının 15 faiz olduğu bir məmləkətdə real gəlirlərin artımından yox, azalmasından söhbət gedə bilər. O 8 faizlik nominal artım inflyasiyanın qurbanına çevrildi. Buna görə də Statistika Komitəsinin topladığı rəqəm doğru rəqəm deyil. Bütün dünyada nominal yox, əhalinin real gəlirlərinin artımı hesablanır. Azərbaycanda isə sanki söz oyunu qurublar. Nədə əhaliyə bir təbliğat kimi istifadə etmək mümkündürsə, bu tipli bəyanatlarla statistik məlumatları təbliğat vasitəsinə çevirirlər".





8-ci kilometr bazarına baş çəkib qiymətlərlə də tanış olduq. Novruz bayramına bir ay qalsa da, əhali xarab olmayan məhsulları indidən alaraq tədarükünü görürdü. Qiymətlərə gəlincə isə daha çox qoz, fındıq, quru meyvələrin qiymətində artım vardı. Belə ki, qabıqlı qoz 15 manata, qoz ləpəsi 17-28 manat, qabıqlı fındıq 7-9 manat arası, ləpəsi isə 15-20 manata təklif olunur. Yerfındığı 12 manat, kişmiş 6-12 manat arası, qaysı 7-15 manat arası, şabalıd 15-16 manata, gavalı 12, alça 9 manata satılırdı. Quru badam 10 manata, alma qurusu 8 manata, turş gilas qurusu isə 14 manata satılırdı. Meyvələrə gəlincə isə alma 1,50 -3 manat arası, nar 5-6 manat, portağal 2,50 -3 manata, armud 2-4 manat, ananas 7-8 manat, banan 2 manat 70 qəpiyə, naringi - 1 manat 50 qəpik və 3 manat 50 qəpik arası, üzüm 5 manata satılır. Pomidor 3-5 manat, xiyar isə 2-5 manat arasında satılırdı.

Satıcılar alıcıların ləpə və quru meyvə tədarükünü indidən gördüyünü deyirdi.

**Quru meyvə satıcısı Əli Məmmədov bayramqabağı ləpələrin də qiymətində artım olacağını dedi:** "Hələ ki qiymətlər münasibdir. Novruzqabağı ən azı üstünə 1-2 manat qoyacağıq. Bizə də baha gəlir deyə buna məcburuq".

**Alıcılar isə durumdan narazı idi. Alıcı Mətanət Quliyeva bu qiymətlərlə bayram keçirməyin çətin olacağını dedi:** "Qiymətləri görəndə adamda bayram əhval-ruhiyyəsi qalmır. Bu bayramda süfrəmizdən çox şeyləri ixtisar etmiş olacağıq. Çox ərzaqları almıram ki, bayram yarmarkasından alacam. Ümid edirəm ki, bayram yarmarkasında qiymətlər cibimizə uyğun olacaq".

**Kənd təsərrüfatı mütəxəssisi, aqronom Vahid Məhərrəmov politika.az-a açıqlamasında Novruzqabağı qiymət artımının qarşısını real olaraq almaq mümkün olmayacağını deyib:** "Bizim idxaldan asılılığımız var. Yəni əksər məhsullar idxal olunur. İdxal olunduğu üçün dollarla alınır. Ölkəyə gətirilərkən yol xərcləri və digər xərcləri nəzərə alsaq, bahalaşma olur. Ona görə də Novruz bayramı ərəfəsində idxalçılar gəlirlərini artırmaq üçün belə addım atırlar".

**V.Məhərrəmov bildirib ki, hökumət, məmurlar və yerli icra orqanları bütün gücünü bu sahəyə səfərbər etsə də, bahalaşmanı önləmək mümkün olmayacaq.**

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**

# Zəhərlənənlərin statistikası açıqlandı

**Fevralın 23-ü Respublika Toksikologiya Mərkəzində illik hesabata dair mətbuat konfransı keçirilib. AZƏRTAC-ın məlumatına görə, Səhiyyə Nazirliyinin baş toksikoloqu Azər Maqsudov deyib ki, ötən il mərkəzə 2200 xəstə qəbul olunub: "800 nəfər dərmandan, 500 nəfər dəm qazından, 300 nəfər yandırıcı məhluldan (əsasən sirkə turşusundan) zəhərlənib. 90 xəstə ilan zəhəri, 250 nəfər kəskin allergik reaksiya ilə müraciət edib. Allergiya ilə bağlı verilən məsləhətlərin sayı 2015-ci illə müqayisədə 2,5-3 dəfə artıb.**

Toksikoloji səbəblərdən ölüm hallarında 2015-ci illə müqayisədə azalma müşahidə olunur. 2015-ci ildə 68, 2016-cı ildə isə 52 nəfər bu səbəbdən dünyasını dəyişib. Ölüm hallarının 80-90 faizi sirkə turşusu, psixotrop və narkotik təsirli dərmanlar, antidepresantların istifadəsi nəticəsində baş verib, bunların 30 faizi intiharlardır. Dərman preparatları ilə zəhərlənənlər 20-50 yaş arası, sirkə turşusu ilə isə 40-80 yaş arası olan şəxslərdir".

# Ötən il Azərbaycana 2 milyon 250 min turist gəlib

**Ötən il Azərbaycana gələn əcnəbilərin sayı əvvəlki illə müqayisədə 12,1 faiz artaraq 2 248,8 min nəfər olub. Bu barədə Dövlət Statistika Komitəsi məlumat yayıb.**

Azərbaycana səfər edən şəxslərin ümumi sayında qonşu ölkələrdən gələnlərin xüsusi çəkisi daha çox olub. Belə ki, ölkəyə səfər edənlərin 33,1 faizi Rusiya Federasiyası, 22,5 faizi Gürcüstan, 14 faizi Türkiyə, 11,1 faizi İran, 19,3 faizi isə digər ölkələrin vətəndaşları olub.

2015-ci illə müqayisədə 2016-cı ildə ölkəmizə gələn bir sıra xarici ölkə vətəndaşlarının sayında daha çox artım müşahidə edilib. Belə ki, İraq vətəndaşlarının sayı 30 dəfə, Birləşmiş Ərəb Əmirlikləri vətəndaşlarının sayı 22 dəfə, Səudiyyə Ərəbistanı vətəndaşlarının sayı 10,2 dəfə, Qətər vətəndaşlarının sayı 5,5 dəfə, İran vətəndaşlarının sayı 66,2 faiz, Misir vətəndaşlarının sayı 51,8 faiz, Çin vətəndaşlarının sayı 44,5 faiz artıb.

Ötən ildə Avropa İttifaqına üzv ölkələrdən gələn vətəndaşların sayı 16,6 faiz azalaraq 91,1 min nəfər, MDB ölkələrindən gələnlərin sayı isə 8,1 faiz artaraq 868 min nəfər olub.

**Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Hacı Allahşükür Paşazadə, Xocalı soyqırımına həsr olunan tədbirdə çıxışı zamanı bildirib ki, Cocuq Mərcanlıda Şuşa məscidinə oxşar bir məscid tikiləcək. Bəs Şeyxin bəhs etdiyi Şuşa məscidi nə zaman tikilib?**

# Şeyxin Cocuq Mərcanlıda tikdirmək istədiyi Şuşa məscidinin tarixi

## Azərbaycan tarixinin incilərindən olan "Yuxarı Gövhər ağa" məscidi indi erməni əsarətindədir



Tarixi mənbələrdə qeyd olunur ki, Şuşanın mərkəzi meydanında öz gözəlliyi və əzəməti ilə seçilən "Yuxarı Gövhər ağa" məscidini (Cümə məscidi) 1883-84-cü illərdə, Gövhər ağanın vəsaiti hesabına memar Kərbəlayı Səfixan Qarabaği tikib.

Araşdırmalar göstərir ki, indiki məscidin yerində hələ Qarabağ xanı Pənahəli xanın dövründə qarqu və qamışdan bir məscid tikilib. Pənahəli xanın tikdirdiyi qarqu məscid 1768-ci ildə növbəti Qarabağ xanı İbrahimxəlil xan tərəfindən daşla əvəz etdirilib. Mənbələrdə qeyd olunur ki, bu məscid həm minarəsiz olub, həm də görünüş etibarı ilə heç də uğurlu alınmayıb. Qeyd olunur ki, məscidin bu görünüşü onun qızı Gövhər ağanı qane etməyib və buna görə də həmin məscidi tamamilə sökdürüb, yerində qoşa minarəsi olan yeni bir məscid tikdirib. Sonradan bu məscid də Gövhər ağanın göstərişi ilə sökülmüş və yerində müasir dövrümüzə qədər gəlib çatmış "Yuxarı Gövhər ağa" məscidi kimi tanınan həmin bina inşa edilib.

Mənbələrdə məscidin binası haqqında aşağıdakılar qeyd olunub: məscidin mərkəzindəki sivri uclu günbəz, çatma tağbəndli portal, onun yan tərəflərindəki eyni örtüyə malik olan taxçalar və qoşa minarələr bu məscidin ümumi siluetini səciyyələndirir. Məscidin ümumi hündürlük səviyyəsindən başlayaraq yuxarıya doğru getdikcə nazikləşən və sonra sabit silindrik formada son zirvəsindəki yüngül çardaq örtüyünə qədər qalxan hər iki minarənin gövdəsini rombvari həndəsi qurşaqlar bəzəyirdi. Həmin minarə çardaqlarının son zirvəsində quraşdırılmış aypara şəkilli ucluqlar məscidin mərkəzindəki günbəzin sonluğu ilə həmahənglik təşkil edirdi. Məscidin ibadət zalında iki tərəfli cərgə səkkizbucaqlı daş sütun düzülməklə onu üç hissəyə ayırıb. Qeyd olunur ki, məscidin hər bir minarəsinin daxilinə səksən beş ədəd pilləkən vintvari şəkildə yerləşdirilmişdir ki, bu da onun çardağına çıxmaq üçün nəzərdə tutulub. Buranın işıqlanması üçün on bir ədəd yarıq şəkilli pəncərə qoyulmuşdur. Mənbələrdən aydın olur ki, həmin minarələr üzərindəki naxışları və ibadət zalının digər bəzək işlərini Şuşa şəhərində yaşayıb-yaratmış şair, rəssam, xəttat və musiqişünas azərbaycanlı alim, Mir Möhsün Nəvvab işləyib. Məscidin baş fasadındakı incə relyefə malik çiçək naxışları və haşiyələnmiş kitabələr də xüsusi zövqlə işlənib. Nəstəliq xəttilə qabarıq şəkildə daşa həkk olunmuş fars dilindəki həmin kitabələrdən biri də məscidin tikilmə tarixini təsdiq edir. Bu xonçaşəkilli kitabədə "Qarabağlı memar Kərbəlayı Səfixanın işidir. H.t. 1301-m.t. 1883-84-cü illər-R.B." sözləri yazılıb.

"Aşağı Gövhər ağa" və "Yuxarı Gövhər ağa" məscidləri Şuşada cümə məscidi kimi məşhur olublar. Mənbələrdə qeyd olunur ki, Şuşa qalasında Gövhər ağanın adını daşıyan iki məscidin tikilməsi eyni məzhəbin fərqli cərəyanlarına mənsub insanlara ibadət üçün şərait yaratmaq məqsədi güdüb. Bu məscidlər arasında məsafə təxminən iki yüz metr olub.

Məscid 1992-ci ilin mayında Şuşanın işğalı zamanı erməni silahlı birləşmələri tərəfindən ciddi dağıntıya məruz qoyulub. Ötən il xəbər yayılmışdı ki, ermənilər bu məscidi təmir edirlər. Belə ki, Ermənistan mətbuatının ötən ilin dekabr ayında yaydığı xəbərdə qeyd olunurdu ki, təmiri iranlı mütəxəssislər aparırlar. Bildirilirdi ki, İran şirkəti Dağlıq Qarabağdakı qondarma rejimin İqtisadiyyat Nazirliyinin sifarişi ilə Şuşa məscidində bərpa işlərinə artıq başlayıb. Lakin İran Xarici İşlər Nazirliyi İran şirkətinin Şuşada məscid təmir etməsinə dair yayılan xəbərləri təsdiqləmədi. Azərbaycanın müvafiq qurumları da bu xəbərə reaksiya verərək bildirmişdilər ki, Ermənistanın Azərbaycan məscidini bərpa etmək istəyi işğal etdiyi ərazilərdə mədəni-dini abidələrimizə qarşı həyata keçirdiyi vandalizm siyasətini ört-basdır etmək cəhdidir.

❑ **Əli RAİS**

# Lerikdə görünməmiş faciə: ailənin 4 üzvü qar uçqununda öldü

**Lerik rayonunda qar uçqunu baş verib. Rayon Fövqəladə Hallar Komissiyasının sədri Habil Məlikovun APA-nın cənub bürosuna verdiyi məlumata görə, hadisə rayonun Orat kəndində qeydə alınıb.**




APA-nın cənub bürosunun xəbərinə görə, Mustafayev Əhliman Həbulla oğluna məxsus evin üzərinə qar yığınının düşməsi nəticəsində ev sahibinin həyat yoldaşı, 1961-ci il təvəllüdlü Şövkət Mustafayeva, gəlini, 1994-cü il təvəllüdlü İlahə Mustafayeva, nəvələri - 2015-ci il təvəllüdlü Zəhra Qasım qızı Mustafayeva və 2016-cı il təvəllüdlü Uğur Qasım oğlu Mustafayev ölüb.

Qar uçqunu nəticəsində dünyasını dəyişənlərin meyitləri artıq evdən çıxarılıb. Onlardan ikisi azyaşlı uşaqdır. Bu barədə virtualaz.org-a rayonun Fövqəladə Hallar Komissiyasının sədri Habil Məlikov məlumat verib. Onun sözlərinə görə, Orat kəndi rayonun ən yüksək dağlıq ərazisində yerləşir. **"Bu, bizim rayonun ən yüksək dağlıq ərazidə yerləşən kəndidir. Bildiyiniz kimi, son günlər rayona güclü qar yağıb, qarın hündürlüyü 1.5 metrə çatırdı. Qar uçqunu güclü olub, evin arxa səmtindəki dağdan qar sürüşərək evi basıb. Evin bir otağı uçub, ailə üzvləri uçqun altında qalıb. Uçqun nəticəsində dünyasını dəyişən 4 nəfərin meyiti evdən çıxarılıb. Bir uşaq sağ çıxarılıb. Ölənlərdən ikisi körpə uşaq, ana və nənədir".**

Rayon rəsmisi qar uçqunu nəticəsində dağılan evin əvvəl qəzalı vəziyyətdə olmadığını deyib.H. Məlikov həmçinin bildirib ki, hazırda kənddəki digər evlərin qar uçqunu altında qalmaq təhlükəsi yoxdur.

Qeyd edək ki, bu, Azərbaycanda uzun illərdən bəri qar uçqunu nəticəsində baş vermiş ilk insan tələfatıdır.

# Cərimə meydanı



**Samir SARI**

**Avtomobildə sərnişin olarkən kəmər qurşamayan sərnişinlərin cərimə olunacağı barədə xəbər qədirbilən xalqımızı xeyli əndişələndirib. Ümumi fikir budur: "Durduğumuz yerdə başımıza iş açırlar".**

Sanki avtomobilin təhlüksizlik kəmərini taxmaq işgəncə növlərindən biridir, çox zülm işdir.

Əslində bu, o qədər də çətin bir şey deyil, texniki işdir, iki-üç günlük çətinliyi var, sonra adam vərdiş edir, məsələ bitir. Hətta ola bilər ki, 1-2 aydan sonra kəmər taxmağa vərdiş eləyən adam kəməri olmayan maşında yol gedərkən özünü narahat hiss edər.

Məsələn, mən özüm istər avtomobil sürəndə, istərsə də sərnişin olanda kəməri qurşamadan yüz metr yol gedə bilmirəm, çatışmazlıq hiss edirəm, rahat olmuram. Belə vərdiş eləmişəm.

Ancaq adam da var ki, deyir, "sıxılıram, nəfəsim tıncıxır". Düzdür, yol polisinə cərimə ödəyəndə adamın nəfəsi daha çox tıncıxır, amma yenə də kəməri taxmır, ya da DYP maşını görəndə cərimədən qaçmaq üçün kəməri yalandan sinəsinin üstündən aşırır, "təhlükə sovuşan" kimi o yana itələyir. O da belə vərdiş edib.

Beş-altı il qabaq kəmər taxmayan, "tıncıxan" sürücülərin 95 faizi artıq taxırlar, tıncıxmırlar, amma yenə də 3-5 faiz qatı, əqidəsinə sadiq sürücü qalır, taxmırlar və özlərini bir növ dissident kimi aparırlar.

Mədəni ölkələrdə nəinki sürücülər və öndə oturan sərnişinlər, hətta arxada oturanlar da kəmər bağlayır və heç kəs tıncıxmır. Mikroavtobuslarda da elədir. Kəmər taxmayanda siqnal səsi gəlir - dud-dud-dud. Zəhlətökən şeydir. O səs gələndə sürücü avtomobili yerinən tərpətmir, geri qanrılır, kəməri taxmağı tövsiyə edir.

Xaricdə olanda bənzər hadisə bir neçə dəfə başımıza gəldi, kəmər taxmağa qarşı olan yoldaşların üstündən siqnal səsi gəldi, onlara irad tutuldu, amma axırda bizimkilərin problemin həlli yolunu tapdılar, kəmərin hacətini yerinə taxıb, sonra oturdular, həm özləri tıncıxmadı, həm də mikroavtobus tıncıxıb siqnal vermədi.

Ancaq açığı, biz hələ sərnişin olaraq kəmər qurşamağa hazır deyilik. Bu, hələ bizə çöçün gəlir. Etiraz edənlər də olur. Bu yaxınlarda taksidə oturanda kəmərimi taxarkən sürücü dedi, qardaş, nə ehtiyac var, onsuz da yol polisi bir söz demir. Mən də dedim, bunu yol polisi üçün taxmıram, özüm üçün taxıram, ona görə taxıram ki, sən tormoz verəndə alnım ön şüşəyə dəyməsin. Sürücü başını buladı, amma 4-5 dəqiqədən sonra elə oldu ki, həmin o buladığı baş az qala şüşəyə dəyəcək və hər ikisi çatlayacaqdı.

İndi maraqlıdır ki, arxa oturacaqlarda əyləşən sərnişinlər üçün kəmər sevdası haradan çıxdı? Guya yollarımız Almaniyanın avtobanları kimidir ki, saatda 150-200-lə gedək, arxada oturanların da təhlükəsizliyinə təhdid yaransın?

Hiss olunur ki, bütün bunlar kasıblamış büdcəni doldurmaq üçün icad edilən üsullardır. Əgər elədirsə, islahatlar təkcə bununla məhdudlaşmamalıdır.

Çox şey fikirləşmək olar. Məsələn, dostlardan biri dünən sosial şəbəkədə təklif edib ki, belinə kəmər bağlamayan piyadalar da cərimələnsin, çünki şalvarın beldən sürüşüb düşməsi də, prinsipcə, təhlükəlidir.

Məndən olsa, maşından yola siqaret qutusu, kötüyü, alma cecəyi, banan qabığı və sair zir-zibil atanlar da cərimələnməlidir - həm yol-riz təmiz olar, həm də büdcəyə pul gələr.

Piyadaları da unutmaq olmaz. Neçə vaxtdır, onları yolu düzgün keçmədiklərinə görə cərimələyirlər. Bir xeyli adam məsuliyyətli olub. Amma "20 Yanvar" dairəsində yenə də piyadalar hardan gəldi, basıb keçirlər. Çünki yol polisi orda sayıqlığı bir az azaldıb.

Elə etmək olar ki, camaat maaşını alan kimi gedib cərimısini ödəsin. Təcrübə göstərir ki, insanlarda pul çoxalanda pis olur, döşənib avtomobil alır, yollarda tıxac yaradırlar, ya da çoxlu yeyib-içir, təbiəti korlayırlar. Amma onlar hər addımda cərimələnsələr, büdcədə maliyyə çatışmazlığı olmaz.

Bir sözlə, ölkəni cərimə meydanına döndərməyin ziyanı yoxdur. Əsas odur ki, dövlətin büdcəsində pul olsun, bizim camaat kasıb yaşamağa vərdişkardır, qəti tıncıxmır.

YENİ MÜSAVAT
N 42 (6656) 24 fevral 2017

# Qarabağ əlilini "təqaüdçüsən" deyib işdən çıxardılar

## Zakir Hüseynov: "Arzu Rəhimov özü təqaüd də alır, maaş da"

**"Arzu Rəhimov qanunsuz olaraq məni işdən çıxarıb, daha az maaşlı işə keçirib"- ikinci qrup Qarabağ müharibəsi əlili, polkovnik-leytenant Zakir Hüseynov Səfərbərlik və Hərbi Çağırış üzrə Dövlət Xidmətinin (SHÇDX) rəisi Arzu Rəhimovdan şikayətçidir. Deyir ki, illərlə xidmətdə ixtisasına uyğun vəzifədə çalışıb, günlərin birində isə onu işdən azad ediblər və uyğun olmayan işə yollayıblar. Həmin işdə isə əmək haqqı azdır.**



Zakir Hüseynov

Z.Hüseynov dəfələrlə dövlət qurumlarına və müvafiq təşkilatlara müraciət etsə də, problemi həll olunmayıb: "Şikayət edirəm, deyirlər ki, 143 manat maaşdan əlavə təqaüd də alırsan. Halbuki hazırda SHXÇDX-də ehtiyatda və istefada olan zabitlər çalışırlar. Onlar da təqaüd alırlar, amma yüksək maaşlı işdə də qalmaqdadırlar. Mən 2-ci qrup Qarabağ əliliyəm, faktiki olaraq mənimlə bu gün xidmətdə çalışan Arzu Rəhimova yaxın olan təqaüdçülərin arasında fərq yoxdur. Üstəlik, qanun da mənim 2-ci qrup əlil kimi öz razılığım olmadan başqa işə keçirilməyimə imkan vermir. Məni başqa işə öz razılığım olmadan keçiriblər. Arzu Rəhimovun özü təqaüd də alır, maaş da. Mənim müraciətlərimə isə cavab yazırlar ki, təqaüd alırsan. Başa düşə bilmirəm ki, mənim təqaüd almağımı niyə səbəb gətirirlər. Axı mənə cavab yazanların özləri də mənim kimi təqaüdçülərdir".

Polkovnik-leytenant Zakir Hüseynov 1963-cü ildə Tovuz rayonunun ermənilərlə sərhəddə yerləşən Koxanəbi kəndində doğulub. Kənd orta məktəbini əla qiymətlərlə bitirdikdən sonra keçmiş Azərbaycan Pedaqoji İnstitutunun (indiki Azərbaycan Pedaqoji Universitetinin) hərbi-hazırlıq fakültəsinə daxil olub. Ali məktəbi müvəffəqiyyətlə bitirdikdən sonra taleyini hərbiyə bağlayıb və Azərbaycan ordusunda gənc zabit kimi xidmət etməyə başlayıb. Zakir Hüseynov deyir ki, o qızğın döyüşlər gedən, ön cəbhədəki hərbi hissələrdə nümunəvi xidmət və şücaət göstərib. Tovuz rayonunun müdafiəsində mərdliklə dayanan hərbi hissənin döyüşçü komandiri olub. Onlar dəfələrlə erməni işğalçılarının canlı qüvvəsini və hərbi texnikasını məhv ediblər. Məhz bu uğurlu döyüş əməliyyatlarının keçirilməsində hərbi hissənin komandiri Zakir Hüseynov böyük fədakarlıq göstərib, minaya düşərək ağır yaralanıb, sağ ayağını itirib. Hazırda ömürlük şikəstdir.

**Müharibədən sonra hərbi komissarlıq sistemində çalışıb. 2009-cu ildə ştat ixtisarı ilə ixtisar olunub, sərəncama götürülüb.**

"Vaxtından əvvəl heç bir qüsurum olmadığı halda son yaş həddinə çatmamış hərbi xidmətdən ehtiyata tərxis etdilər. Hərbi xidmətdən tərxis olunduqdan sonra Bakı şəhəri, Nizami rayonu Hərbi Komissarlığında mülki işçi kimi işə qəbul olundum. 2012-ci ildə hərbi komissarlıq sistemi yenidən qurularaq SHXÇDX yaradıldıqdan sonra qeyri-qanuni olaraq azad edildim. Bir müddət sonra isə məni SHXÇDX-nin nəzdində olan "Hərbi Vətənpərvərlik və Mütəxəssis Hazırlığı" MMC-nin Xətai rayon filialında mühəndis-mexanik kimi işə qəbul etdilər. Hazırda işlədiyim mühəndis-mexanik vəzifəsi ixtisasıma uyğun deyil. Mühəndis deyiləm, mexanik işini bilmirəm. İndiki iş yerimdən aldığım 143 manat heç mənim müalicə xərclərimə kifayət etmir. Habelə hərbi rütbəmə uyğun deyildir. Mən polkovnik-leytenant kimi ehtiyata buraxılmışam. Valideynlərim ermənilərlə həmsərhəd kənddə yaşayır, daim düşmən atəşinə məruz qalırlar. Mən onların da qayğısına qalmalıyam. Həyat yoldaşım və qızım 2003-cü ildə vəfat ediblər. Hazırda himayəmdə azyaşlı yeganə oğlum var, mən ona həm ata, həm də anayam. Dəfələrlə ixtisas və təcrübəmə uyğun işlə təmin olunmaq üçün SHXÇDX-nin rəisi general-leytenant Arzu Rəhimovun qəbulunda olmuşam, yazılı müraciətlər etmişəm. Lakin bu günədək məsələ həllini tapmır. Münasib işlə təmin olunana qədər mübarizə aparacağam".

❑ **E.HÜSEYNOV**

**ÖZƏL TİBBİ SAHƏDƏ 20 İLLİK TƏCRÜBƏ!**
**Xəstəlikdən əzab çəkən insanlara**
**Əsasən Kişilərə!**
**Diqqət!!! Axırıncı Şans!!!**

Azərbaycanda və yaxud xaricdə diaqnozun təsdiqi və tam müalicəsi mümkün olmayıbsa, doktor VAİZ SƏMƏDOV şəxsi tibbi metodikası ilə Sizin uğurlu və daha qarantili olaraq aşağıdakı xəstəliklərinizi müayinə və müalicə edə bilər.

- Diaqnozu bilinməyən ağır hallar;
- Xərçəngə şübhəli olan prostat düyünlü adenoması. Prostatitlər;
- Cinsi zəiflikdən impotensiyadək, marağın və aktların azalması;
- Vaxtından tez toxum ifrazatı (səbəbdən asılı olmayaraq)
- Toy gecəsinin uğursuzluqları (kişi tibbi problemlər)
- Sidikdə və spermada qan;
- Spermanın azalması, itməsi;
- Kişi cinsi orqanın birdən əyilməsi, balacalması;
- Oğlan uşaqlarda cinsi orqanların (penisin və xəyaların) yaşa görə balaca olması;
- Ailədə olan hormonal və infeksion səbəbli sonsuzluq;
- Tala-tala və hərtərəfli saçların tökülməsi;
- Gecə-gündüz uşaq və böyüklərdə sidik aktların pozulmaları;
- Baş-boyunda, onurğa-qılçaqlarda, qollar-ayaqlarda, qasıq-xayalarda ağrılar;
- Psixo-nevroloji gərginlik, yuxusuzluq, qorxu, yaddaşın azalması və digər qəribə olan şikayətlər.
- Zöhrəvi xəstəliklərdən sonra qalıqlar və ağırlaşmalar

---

D-r V.Səmədovun əsas tibbi prinsipi - keyfiyyətli və təkrarsız müalicə aparmaq üçün xəstəliyin əsl və bütün səbəblərini aşkar etmək zəruridir.

---

*Qəbula yazılmaq və ünvanı öyrənmək üçün saat 11-dən 23-ə dək, (050) 213-88-05 nömrəsinə, d-r Vaiz Səmədova zəng etmək olar*
Qəbul növbə ilə hər gün saat 12-dən sonra başlayır.



# Bakıda narkotik neçəyədir?

## İmkansız şəxslərin narkotiki necə əldə etdiyi maraq doğurur...

**Mütəmadi olaraq mətbuatda belə xəbərlərə rast gəlirik ki, "polis əməkdaşları tərəfindən saxlanılan şəxsin üzərinə baxış zamanı ondan narkotik vasitə aşkar edilərək götürülüb və həmin şəxs istintaqa cəlb olunub". Xüsusilə də son zamanlar ictimai fəal şəxslərin bu cür ittihamla həbs olunduqlarının şahidi oluruq. Hətta bəzən onların çoxu işsiz, maddi vəziyyəti yaxşı olmayan şəxslər olurlar.**

Bəs bu narkotik maddələrin qiyməti neçəyədir?

2015-ci ildə Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə Komissiyası narkotik vasitələrin "qara bazar" qiymətlərini açıqlayıb.

Bildirilib ki, 1 yanvar 2015-ci il tarixə olan vəziyyətə görə 1 kq tiryəkin "qara bazar"da topdansatış qiyməti minimum 3 000, maksimum 7 000 dollar, pərakəndə satış qiyməti minimum 10 000, maksimum 15 000 dollar olub.

Müvafiq olaraq 1 kq heroinin "qara bazar"da topdansatış qiyməti 15 000-20 000 dollar, pərakəndə satış qiyməti 40 000-50 000 dollar, 1 kq marixuananın topdansatış qiyməti 6000-8000 dollar, pərakəndə satış qiyməti 8 000-12 000 dollar, 1 kq həşişin topdansatış qiyməti 2 500-4 000 dollar, pərakəndə satış qiyməti 6 000-8 000 dollar olub.

Yuxarıda qeyd olunan qiymətlər dollarla göstərilsə də, nəzərə alaq ki, həmin zaman manatın devalvasiyası baş verməmişdi. Yəni hazırda milli valyuta ilə bu maddələrin qiyməti qeyd olunanlardan 2 dəfə bahadır.

İllərdir dünyada və Azərbaycanda narkomaniyaya qarşı mübarizə aparılsa da qeyd olunur ki, əvvəlki illərdən fərqli olaraq, hazırda narkotik maddələrin növü daha da çoxalıb.

**Bu barədə "Yeni Müsavat"a danışan sabiq polis rəisi Mahmud Hacıyev bildirib ki, əvvəllər insanlardan yalnız ot formasında olan narkotik vasitələr aşkarlanırdı:**

"10-15 il öncə ancaq otlar tapılırdı. Heroin, kokain və digər bu kimi maddələrə rast gəlinmirdi. Çox nadir hallarda isə tiryək aşkarlanırdı. Son zamanlar isə bu kimi maddələrin yayılması halları sürətlənib. Hazırda satılan narkotik maddələr süni şəkildə, kustar üsulla hazırlanır. Ona görə də insanın beynini, şüurunu məhv edir. Ancaq orijinal deyilən maddələr də var. Onlar isə əvvəla, xaricdə olur, ikincisi də, qiyməti çox bahadır. Bu maddələr də insan orqanizmi üçün zərərlidir. Ancaq "qara bazar"da ucuz qiymətə satılanlar daha da təhlükəlidir. İndi bəzi ölkələrdə marixuananın müəyyən limitlə istifadəsinə icazə verirlər. Azərbaycanda da bu kimi məsələlər barəsində bəzi deputatlar fikirlər səsləndirirlər. Ancaq bir şeyi unudurlar ki, bu, çox incə bir məsələdir. Məsələ detallı şəkildə araşdırılıb, sonra qərar verilməlidir. Əvvəllər də qanunda belə idi ki, şəxsin üzərindən müəyyən miqdardan artıq "ot" tutulan zaman onu istintaqa verirdilər. Həmin miqdarı aşmayanda şəxsi tənbeh edib, buraxırdılar. Söhbət yalnız "otla" tutulanlardan gedir. İndi isə otdan daha çox, "ağ" deyilən digər maddələr yayılıb. Bu da çox zərərli və cəmiyyət üçün təhlükəlidir".

❑ **Əli RAİS**

YENİ MÜSAVAT
N 42 (6656) 24 fevral 2017




**Cümə söhbətləri**

**Bismilləhir-Rahmənir-Rahim!**
**Həmd olsun Allaha ki, bizlərə Allahın hüzurunda olmağımızın fərqinə varmaq və öz halımız, vəziyyətimiz haqqında düşünməyi nəsib edir. Bu günlər həm də Xanım Fatimeyi-Zəhranın (s.ə) əyyamını yaşadılmaqdadır. Bu əyyamların ən böyük faydası, əhəmiyyəti, əsas hədəfi - bizlərə Allahı xatırlatmaqdır. Bu kimi əyyamları yaşatmaq bizləri qəflətdən ayıldır.**

# Qəflətin insana gətirdiyi məstlik



Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

## Dünyanın zahirinə aldananların axirətə qəfləti

Qəflət insan üçün ən ciddi problemlərdən biridir. Qəflətlə müşayiət olunan həyat tərzi insanı məhvə aparır. Rəbbimiz Qurani-Kərimdə "Rum" surəsinin 7-ci ayəsində bizləri ciddi bir mövzu ilə bağlı bilgiləndirir. Ayədə buyurulur: **"Onlar dünya həyatının zahirini bilirlər (hiss etdikləri və bəhrələndikləri şey onlar üçün məqsəddir və əsasdır) və axirətdən (dünya həyatının həqiqi nəticəsi olan axirət həyatından) isə olduqca xəbərsizdirlər".**

Ayədən başa düşülür ki, dünyanın zahiri dəyərsizdir. Dünya həyatının, yaşayışının zahiri böyük bir dəyərə malik deyil. Ayədən təfsiri baxımından anlaya biləcəyimiz ikinci nöqtə isə budur ki, insanların əksəriyyəti axirətdən qəflətdədirlər. İnsanlar əbədi, davamlı bir həyatın olacağının fərqində deyillər.

Hər bir insanın iki həyatı var. Biri - hazırda mövcud olduğu həyat və digəri - əbədi bir həyat. İnsan əgər əbədi həyatından qəflət etsə, müsibətlərlə üz-üzə gələr. Ayədən belə başa düşülür ki, insanların əksəri aqibətlə bağlı qəflətdədir. Bu ayədə bizlərə mühüm bir gerçəklik də çatdırılır ki, dünyaya səthi yanaşma, dünyaya üstdən yanaşma, səthi baxış insanı axirətdən qəflətə düşməsinə gətirib çıxarır.

Bu ayədən başa düşülür ki, dünyanın bir zahiri, bir də batini var. O kəs ki mövcudiyyətini dünyanın zahiri ilə məhdudlaşdırar, əslində özünü məhv etmişdir. Bu mənada, biz nə qədər dünya həyatının batininə, gerçəkliyinə diqqət etsək, o qədər əslində aqibət, axirətlə bağlı ayılmış olarıq.

## Qəflət nədir?

Qəflət bəhsi olduqca ciddidir. Həzrət Fatimeyi-Zəhra (s.ə) ilə bağlı ağrılı tarixi gerçəkliklərin baş verməsinin köklü səbəblərindən biri - ümmətin qəflətdə olması olub. Ümmət qəflətdə olmasaydı, Mədinə əhalisi qəflət etməsəydi, o ağrılı cinayətlər baş verməzdi. Qəflət bu anlamda özü-özlüyündə dərindən öyrənilməli mövzudur. Çünki bizlər həm dünya işlərimizdə qəflət edə bilərik, həm axirət işlərimizdə qəflətə düşə bilərik. Bu anlamda qəflət çox zərərli bir prosesdir. Misal üçün, bir insan yol keçir. İki cür yol keçmək var. Normalda insan yolu keçməzdən öncə sağa-sola baxır, daha sonra yolu keçir. Amma yolu bu cür keçməyənlər də var. Adamlar var ki, başlarını aşağı salır, ya diqqəti telefonda olur, ya fikirləri özlərində olmurlar və s. Bu durum əslində çox təhlükəlidir. Sağdan-soldan gələn maşın vura bilər, yolun üzərində çala olar və ora düşər və s. İnsan metro ilə gedərkən adətən belə hallarla qarşılayır. Misal üçün, "Elmlər Akademiyası" stansiyasında düşməli olan insanın başı qarışır və bir də ayılır ki, artıq "20 Yanvar" stansiyasındadır.

## Qəflət əməlləri sıradan çıxardar

Axirətlə bağlı qəflət də bu cür təhlükəlidir. Qəflət - əməli məhv edən mövzulardandır. Qəflətdə olan insanın əməli olmaz. Həzrət Əli (ə) buyurur: **"Qəflətdə olan üçün əməl yoxdur".** Əməl o zaman ərsəyə gəlir ki, insan ayıq olsun, harada olduğunu bilsin, nə etdiyini bilsin. Qəflət olan yerdə saleh əməl meydana çıxmır. Buna görə də bizlər qəflətin nə dərəcədə təhlükəli olduğunu başa düşməliyik. Qəflətin özü ilə gətirdiyi faciələr var.

Qəflətin vurduğu ən ciddi zərərlərdən biri budur ki, qəflət insana axirət səfərini unutdurar. Bizim yadımızdan çıxar ki, yolçuyuq, səfər ərəfəsindəyik, əbədi səfərə hazırlığımız var, burada hazırlaşırıq. Tarixə baxanda da görürük ki, Mədinədə olan insanlar kim olduqlarını, haradan hara gəldiklərini unutdular. O qədər unutdular ki, baş verənlər artıq onlar üçün ciddi əhəmiyyət daşımamağa başladı. Laqeydlik meydana çıxdı, baş verən hadisələrdə davranışları və reaksiyaları adekvat olmadı. Çünki axirət səfərini unutdular. Axirət səfəri unudulanda insan Peyğəmbərin (s) gözünün işığı olan Həzrət Zəhranın (s.ə) evindən çıxıb məscidə gəlməsinə və gəlməsi ilə höccəti tamam etməsinə belə diqqət etməz. Bir toplum qəflətdə olanda Fədək əmanətinin Əhli-Beytdən (ə) alınmasının belə fərqinə varmaz.

## İnsan səhv və xətaları qəflət halında edir

İnsan ümumiyyətlə günahları qəflətdə olduğu zaman edir. Əgər ayıq olsa, etdiyinin nə olduğunu, nə nəticələrə gətirib çıxaracağını bilsə, onu hansı təhlükələrin gözlədiyini bilsə, o əməlləri etməz. Əgər insan bilsə ki, böhtan onu nə qədər məhv edir və hətta bu dünyada belə, nəticələri özünə qayıdır - böhtan atarmı? Əgər fərqində olsa ki, qeybət onun aqibətini necə zay edir - qeybət edərmi?

Əgər insan fərqində olsa ki, axirət səfəri var və o səfər üçün hazırlıqlar etməlidir, o səfərdə səmərəsi olan tədarükləri özü ilə aparmalıdır - o zaman hazırlaşar. Deməli, qəflətin özü ilə gətirdiyi ən birinci problemli mövzu - axirət səfərini unutdurmasıdır.

Qəflətin özü ilə gətirdiyi ikinci mühüm bəla - səhv etməkdir. İnsan nəyə görə qəflətdə olan zaman səhv edir? Çünki qəflətdə olan insanın hədəfi, istiqaməti bəlli olmaz, üfüqləri itirər. Misal üçün, gedəcəyi yeri bəlli etməyən insan, istənilən dayanacaqda enə bilər və əksər hallarda da bu yanlış dayanacaq olar. Qəflətdə olan insan da aqibəti ilə bağlı davamlı səhvlər edər.

## Qəflət bizim başımızı bu dünyaya qatar

Qəflət və başın qarışıq olması da bir-biri ilə sıx bağlıdır. Bizim çoxumuzun bəlası məhv bu məsələdədir. Bizim başımız çox qarışıb. Bir ömür başımız qarışıq yaşayırıq və bir gün də bu dünyadan gedəcəyik. Amma, başımızı qarışdıran məsələlər bizim aqibətimiz üçün xeyirli olacaqmı?

Başımızın qarışmağının əvvəli belə olur ki, yaxşı Allah bəndəsi olmaq üçün gərək yaxşı ruzi qazanaq. Sonra unudur ki, nə üçün işə başlamışdıq, nə üçün ruzi dalınca getmişdik. Hədəf unudulur, mahiyyət yaddan çıxır və işin ancaq zahiri, başımızı qatan hissəsi qalır. Beləliklə, namazları axırıncı vaxtında qılmağa başlayarıq, dualardan, camaat namazlarından və s.-dən uzaqlaşarıq. Əgər bir insan görsə ki, namazlarını axırıncı dəqiqələrdə qılmağa başlayıb - bilsin ki, başı qarışıb. Əslində o, Allaha xatir ruzi qazanmaqla məşğul deyil, sadəcə, özünü aldadır.

## Qəflət və haqq yolundan azma

Qəflətin yaratdığı ciddi problemlərdən biri insanı - haqq yolundan azdırmasıdır. Qəflətdə olan insan haqq yolundan azar. Çünki yolda olmağının fərqində deyil. Yolu görmür, yolda nə baş verdiyini görmür, belə olduqda, təbiidir ki, azsın. Necə ki, Mədinədə o həddə qədər azdılar ki, Peyğəmbər (s) balasının (s.ə) dərdini belə soruşmurdular. Onlar, sadəcə, gəlib deyirdilər ki, Xanım Zəhra (s.ə) ya gündüzlər ağlasın, ya da gecə. Onlar Xanımın (s.ə) niyə ağladığını soruşmurdular. Qəflət insanı bu həddə qədər haqq yolundan azdırar. Ümmət o qədər qəflətə düşmüşdü ki, Həzrət Əlinin (ə) mehrabda şəhid olduğunu eşidəndə nədən şəhid edildiyini soruşmurdular, Əli (ə) kimi bir dühanın namaz qılıb-qılmadığını (!) təəccüblə soruşurdular. Toplum qəflət vasitəsilə o qədər deqradasiya edər, o qədər tənəzzülə uğrayar ki, ən aydın şeylərdən uzaq düşər.

Qəflətin ən ciddi məsələlərindən biri - insanla moizə, nəsihət arasında fasilə yaratmasıdır. Qəflətdə olan insan moizə, nəsihət eşitməz. Hər birimiz iki cür halda ola bilərik: moizə qəbul etməli halda və özümüz hamıya hər şeyi öyrədə bilərik düşüncəsi ilə yaşayan halda. Qəflət insanın moizə qəbulediciliyini çox aşağı salar.

## Qəflətin məstliyi şərabdan da dərindir

Qəflət insana bir məstlik gətirər. Həzrət İmam Səccad (ə) buyurur: **"Vay olsun sənə, ey Adəm övladı. Bil ki, çox yeməyin ağırlığı və tənbəllik o şeylərdəndir ki, insanı əməldən saxlayar. Allahı xatırlamağı aradan aparar. Ölümünün yaxın olmağından qəflətdə saxlayar. O yerə qədər ki, insan dünya vurğunluğuna giriftar olar".**

Deməli, iki mühüm məsələ var ki, insanı qəflət halına gətirib çıxardar. Bunlar həm də dünya həyatının zahirindən bəhrələnmə mənasındadır. Bunlar çox yemək və çox yeməyin ağırlığıdır. Çox yemək, çox yatmaq, şəhvətin arxasınca getmək insanın evini yıxan məsələlərdir. Qəflət vaxtı bu məsələlər meydan sulayır. Qəflət vaxtı ağıl hökm sürmür, ağıl işıq salmır. Qəflət vaxtı meydan - şəhvətlərin, həvayi-nəfslərin əlindədir. Ən iffətli insanlar qəflət etsə, şəhvətlər onlara qalib gələr. Zina bu gün tək küçələrdə deyil. Bu gün ən böyük facıə budur ki, insanlar qəflət edərlər, virtual dünyada, internetdə göz zinası edərlər.

Adam qəflət edəndə öz evində ailəsinə bir xoş söz deməyə ərinər. Dinimiz buyurur, tövsiyə edir ki, evdə kişi xanımına xoş sözlər, duyğulu sözlər desin. Bu, həm də insanın imanının göstəricisidir. Amma qəflət edən insan naməhrəmlərə deməyə xoş sözlər, xoş təriflər axtarar. Bunun paralelində hər gün evdə diqqətsizlik görən xanım, əgər imanla, Allah bəyənənlərlə yaşamasa, naməhrəmlə fasiləsini qorumasa, virtual aləmdə digərlərindən həmin xoş sözləri eşidəcək. Həm də bu səbəblərdən ölkəmizdə hər beş, altı ailədən biri dağılır və bu facıə dərinləşir.

## Ölüm əslində çox yaxındır

İmamın (ə) buyuruşundan aydın olur ki, qəflət edən insan ölümün yaxın olduğunu unudar. Biz elə bilirik ki, ölümə hələ çox var. Nə çox ətrafda insanlar ki, bir neçə ay öncə xəstəlik aşkarlanır və artıq aramızda yoxdur. Xüsusən XXI əsrin xəstəlikləri belədir ki, bu gün aşkarlanır, bir neçə aya artıq insan bu dünyaya vida edir. Kimin bunlardan sığortası var? Onu demirik ki, yola çıxanda hər an maşın vura bilər, təmir olunan yerdən üzərinə bir daş düşə bilər və s.

Dünya həyatının zahirini yaşamaq insana bir eyforiya, məstlik gətirər. Bu məstlik şərabın yaratdığı məstlikdən də dərin olar. Bu, bir eyforiya halında olar və nəticədə insanın əməl tofiqatı olmaz. Belə olan halda Allahı xatırlamarıq, ölümün yaxın olmasından qəflət edərik. Bu zəlalətin ən pik nöqtəsi isə insanın dünya vurğunluğuna giriftar olmasıdır. Dünya vurğunluğuna giriftar olan insanın geriyə dönüşü artıq çətin olar. Ona xəstə olduğunu belə, inandırmaq çətin olar ki, özünü müalicə etsin. Elə zənn edər ki, nə varsa, elə bu dünyadadır.

**Allahım, bizləri qəflət durumundan çıxanlardan qərar ver!**
**Allahım, bizi hər zaman ölümü xatırlayanlardan qərar ver!**
**Allahım, aqibətlərimizi xeyirli et! Amin!**

YENİ MÜSAVAT

Son səhifə

N 42 (6656) 24 fevral 2017



## Vegeterian festivalında kolbasa tələbi

Almaniyanın Kessel şəhər bələdiyyəsi vegeterian festivalının təşkilatçılarından tələb edib ki, orada kolbasa satışını təmin etsinlər. Bu barədə "BBC News" xəbər verir. Bələdiyyə üzvləri hesab edirlər ki, tədbirdə kolbasa satan səyyar satıcılar, qayıqlar olmalıdır. Hətta onlar iddia ediblər ki, donuz kolbasası - "ale vurst" bu şəhərdə küçə festivallarının ən vacib elementidir və belə də davam etməlidir. Amma festival təşkilatçıları bu tələbin absurd olduğunu iddia edib - axı vegeterianlar heyvan əti və ondan hazırlanan məhsullardan tamamən imtina edirlər. Yaşıllar Partiyasından şəhər merliyinə namizəd Eva Kox isə hesab edir ki, kolbasa heç də mübahisə mövzusu olmamalıdır. Onun fikrincə, ümumiyyətlə, festivalda ətin heç olmaması bəzi şəhər sakinlərini narahat edir. "Yaşıllar" bu mövzuda keçirilən səsverməyə qatılmaqdan imtina edib.

Ötən ilin dekabrında isə Almaniyanın kənd təsərrüfatı naziri Kristian Şmidt vegeterian şnitseli və veqan kolbasasını qadağan etməklə bağlı təklif səsləndirmişdi. Onun fikrincə, tərkibinə ət məhsulları daxil olmayan ərzaqlar bir qayda olaraq orqanizmə xeyir vermir.

# Sevdiyi qıza puldan "gül buketi" hazırladı



Çinin Çançun şəhər sakini sevdiyi qıza puldan "gül buketi" düzəldib. Bu barədə "Daily Mail" qəzeti xəbər verir. Kişi gül mağazasına içərisində 10 min yuan olan çanta gətirib və onlardan gül buketi hazırlamağı xahiş edib. O, mağaza sahibinə izah edib ki, sevgilisinə gözəl Xoruz ili başlanğıcı hazırlamaq istəyib. Pul buketi sosial şəbəkələrdə çinli istifadəçilər tərəfindən neqativ reaksiyaya səbəb olub. Xüsusən çinli qızlar bu cür hədiyyənin aşağılayıcı olduğunu, heç bir romantik dəyərə malik olmadığını deyiblər. "İndi pul buketi hədiyyə edibsə, maraqlıdır ki, bir-iki ildən sonra nə hədiyyə edəcək?" Bu cür rəyləri isə daha çox kişilər deyib.

# Dünyada yeni dəb - boşanma mərasimləri

Avropanın bəzi ölkələrində və Amerikada yeni ənənə yaranıb. Artıq cütlüklər boşanarkən bunu faciəyə, məhkəmə silsilələrinə və düşmənçiliyə çevirmək istəmirlər. Onlar boşanmanın da evlənmə kimi bir hadisə, yəni yeni başlanğıc olduğunu düşünərək, bunu şadyanalıq kimi keçirirlər. Hərə mərasimi öz fantaziyasına uyğun şəkildə qeyd edir. Bəzən qadınlar fantaziyanın sərhədlərini zorlayıb, bir-birindən fərqli yeniliklər çıxarırlar. Məsələn, boşanma tortu, qara gəlinlik paltarı və sair. Boşanma tortunun üstündə adətən bəyi ayağından sürüyən gəlin fiqurları olur. Mərasimə hər iki tərəfin qohumları gəlir və əylənməyə çalışırlar. Əgər cütlüyün övladları varsa, onların öz dostlarını da bu mərasimə dəvət etməsi qəbul olunan haldır. Necə deyərlər, əsas odu, əylənmək üçün səbəb olsun. Və bununla da insanlar dünyaya boşanmanı faciəyə çevirmənin doğru olmadığı mesajını verirlər.





## Aktrisaya təyyarəni etibar etdiyi üçün işdən qovuldu

Meksikada pilot təyyarənin idarəsini müğənni və serial aktrisası Esmeralda Uqaldeyə verib. Həmin vaxt təyyarədə 128 nəfər olub. Bu barədə lenta.ru saytı "The Telegraph"a istinadən xəbər verib. Nəşrin yazdığına görə, insident Kankun-Mexiko reysi zamanı baş verib. Pilot Uqaldenin israrları qarşısında razılaşaraq onu pilotların oturduğu yerə buraxıb. Kabinada həmçinin aktrisanın 19 yaşlı rəfiqəsi də olub. Sonuncu onun başında pilot papağı ilə bir neçə şəklini çəkib. Qalmaqal isə aktrisanın bu fotoları sosial şəbəkədə paylaşmasından sonra yaşanıb. Twitterdə fotolarını paylaşan Esmeraldanın 40 minə yaxın təqibçisi olması qalmaqalın daha da böyüməsinə səbəb olub. Nəticədə isə pilotu işdən azad ediblər. Aktrisanın rəfiqəsi bildirib ki, insident hələ təyyarə yerdə olanda baş verib. Pilot özü isə qaydanı pozduğunu etiraf edib və işdən azad edilib.




**QOÇ** - Bütün gücünüzü səfərbər edib yarımçıq işlərinizi yekunlaşdırın. Bu istiqamətdə sizə köməyi dəyəcək insanlara müraciət etməkdən də çəkinməyin. Deyilənləri edin ki, xoş günlərə start verilsin.

**BUĞA** - Ulduzlar bir daha yalan vəd verməməyi tövsiyə edir. Əgər etibarınızı qoruya bilsəniz, təxminən saat 14-dən sonra ovqatınıza müsbət təsir edəcək hadisələr baş verəcək. Bu gün səfərə çıxmayın.

**ƏKİZLƏR** - Bütün astroloji göstəricilər bu gün ixtiyarın öz əlinizdə olacağını bəyan edir. Yalnız qarşınıza çıxan hər bir situasiyada obyektivliyinizi təmin etməlisiniz. Risk etməyə lüzum yoxdur.

**XƏRÇƏNG** - Yeni təkliflər gözlənilsə də, bütün hallarda tələsik razılıq verməyin. Etibar etdiyiniz şəxslərlə məsləhətləşin ki, bunun səmərəsini görəsiniz. Axşama yaxın bir neçə sürprizə hazır olun.

**ŞİR** - Səhər saatları bir qədər gərgin başlasa da, özünüzü təmkinli aparmaqla vəziyyətdən qurtula bilərsiniz. Günün sonrakı saatlarında isə uğurlarınız bol olacaq. Uzaq yola çıxmayın.

**QIZ** - Yüksək çinli adamlarla perspektivli danışıqlar aparmaq üçün yaxşı gündür. Xüsusən də saat 14-18 arası bu istiqamətdə uğurlarınız gözlənilir. Hər hansı tərəddüdə ehtiyac yoxdur.

**TƏRƏZİ** - Maliyyə məsələləri ilə bağlı problemlərinizi həll etməyə çalışın. Bütün gücünüzü səfərbər etməklə istəyinizə yetişə bilərsiniz. Bu gün qida rasionunuzu da diqqətdə saxlayın - zəhərlənmə ehtimalınız var.

**ƏQRƏB** - Fəaliyyət göstərdiyiniz sahələrdə mübahisəli situasiyalarla rastlaşma ehtimalınız var. Həmkarlarınız və rəhbərliklə mülayim davranın. Nahardan sonra şəxsi büdcənizdə artım gözlənilir.

**OXATAN** - Ümumi süstlüyünüz kifayət qədər səngiyəcək. Bunu həm hadisələrin gedişatında, həm də rastlaşdığınız insanlarla münasibətlərdə görəcəksiniz. Planınızda varsa, uzaq səfərlərə çıxa bilərsiniz.

**OĞLAQ** - Yeniliklər yolunuzu gözləyir. Həm münasibətlər istiqamətində, həm də fəaliyyət müstəvisində müsbət mənzərə yaranacaq. Hətta nahardan sonra maddi zəmində uğurlarınız da mümkündür.

**SUTÖKƏN** - Günün ilk yarısı maliyyə əməliyyatları aparmaq üçün cox uğurludur. Çalışın ki, bu prosesdə təcrübəli insanlarla bir arada olasınız. Nahardan sonra isə qayğıya ehtiyac duyan doğmalarınıza baş çəkin.

**BALIQLAR** - Nə qədər ki öz bürcünüz hakimdir, qarşınıza çıxan hər bir şansdan bəhrələnin. Xüsusən də cari problemlərinizin sürətli həllinə can atın. Axşam saatlarını sevdiyiniz insanlara həsr edin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Balığın əməliyyatına 380 avro ödədi



Şərqi İngiltərədə yeddi santimetr uzunluğu olan akvarium balığı əməliyyat edilib. Ona yemək borusu tıxanması ilə bağlı ciddi diaqnoz qoyulub. Bir saata yaxın davam edən əməliyyat zamanı balığa narkoz verilib. Öz sevimli balığı üçün tibbi kömək istəyən yerli sakinlərdən biri olub. Balığın sahibi əməliyyat üçün 380 avro ödəyib. Həkim Fey Bettel isə əməliyyatla bağlı deyib ki, hər bir heyvanın sahibi o heyvan üçün məsuliyyət daşıyır və onun sağlığı üçün lazım gələndə bu cür fədakarlıqlar etməlidir.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.100

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.